QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 127 (5358) 20 **iyul** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# "Azərbaycan-Türkiyə əlaqələri günü-gündən daha da güclənir"

*Prezident İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul edib*



Səh 2

5

**Azərbaycan inkişaf göstəricilərinə görə böyük uğurlara imza atıb**



5

**Yeni Azərbaycan Partiyası jurnalistləri mükafatlandırdı**



9

**Bakıda Azərbaycan-Türkmənistan-Türkiyə xarici işlər nazirlərinin dördüncü üçtərəfli görüşü keçirilib**



# "Azərbaycan-Türkiyə əlaqələri günü-gündən daha da güclənir"

## Prezident İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu gün Bakıda keçiriləcək Azərbaycan, Türkmənistan və Türkiyə xarici işlər nazirlərinin görüşünün önəmini qeyd edərək, bu tədbirdə əməkdaşlıqla bağlı məsələlərin müzakirə olunacağına, üçtərəfli əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün müvafiq qərarların qəbul ediləcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev Dünya Neft Konqresinin 22-ci İstanbul toplantısının bu təşkilatın nüfuzunun artmasında mühüm rol oynadığını dedi və tədbir çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşünü məmnunluqla xatırladı. Dövlətimizin başçısı qeyd etdi ki, Türkiyə xarici işlər nazirinin ölkəmizə səfəri bir daha ikitərəfli münasibətlərimizə dair məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradır. Prezident İlham Əliyev Azərbaycan-Türkiyə əlaqələrinin günü-gündən daha da gücləndiyini və bütün istiqamətlər üzrə yaxşı nəticələrin olduğunu vurğuladı.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu, ilk növbədə, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevin İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresində iştirakından dərin məmnunluq hissi keçirib. Mövlud Çavuşoğlu Türkiyədə 15 iyul dövlət çevrilişinə cəhd hadisələri ilə bağlı Azərbaycanda keçirilən tədbirlərin ölkəsində böyük razılıq hissi ilə qarşılandığını vurğuladı. Türkiyənin xarici işlər naziri bu yaxınlarda Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat nəticəsində təmas xəttində Azərbaycanın mülki şəxslərinin həlak olması ilə bağlı Prezident İlham Əliyevə və Azərbaycan xalqına başsağlığı verdi. Mövlud Çavuşoğlu bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bütün sahələrdə əldə etdiyi uğurlar Türkiyə xalqı tərəfindən böyük sevinclə qarşılanır. Mövlud Çavuşoğlu Azərbaycan, Türkmənistan və Türkiyə xarici işlər nazirləri arasında bu gün keçiriləcək görüşə toxunaraq, bu tədbirin regional əməkdaşlıq və ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi baxımından önəmini qeyd etdi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

## Azərbaycan-Türkmənistan əlaqələrinin inkişaf perspektivlərinə dair müzakirələr aparılıb



İyulun 19-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Türkmənistan Respublikası Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Türkmənistan arasında çoxəsrlik dostluq və qardaşlıq münasibətlərinin müasir dövrdə yüksək səviyyədə davam etdiyindən məmnunluğunu bildirən hər iki tərəf diqqəti əlaqələrimizin daha da möhkəmləndirilməsi üçün böyük perspektivlərin olduğuna yönəldiblər. İqtisadiyyatın bir çox sahələrində, o cümlədən energetika, kənd təsərrüfatı və humanitar sahələrdə, xüsusən tarixi ticarət yollarının ölkələrimizin ərazisindən keçdiyini nəzərə alaraq nəqliyyat, sərnişin və yükdaşımalar sahəsində böyük potensialın olduğu və birgə layihələrin işlənilməsinin mümkünlüyü vurğulanıb.

Azərbaycan-Türkmənistan-Türkiyə xarici işlər nazirlərinin Bakıda keçirilən dördüncü görüşünün ənənəvi əməkdaşlıq formatı kimi əlaqələrin möhkəmlənməsinə, regional məsələlərin müzakirəsinə və beynəlxalq müstəvidə qarşılıqlı fəaliyyətin təmin olunmasına xidmət edən səmərəli tədbir kimi qiymətləndirən tərəflər, görüşün yekun bəyanatına uyğun olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional inkişafa mənfi təsir edən, ümumən təhlükəsizliyə təhdid olan vəziyyət kimi tezliklə aradan qaldırılmasının, problemin beynəlxalq hüquq normaları çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həllinin vacibliyini qeyd ediblər.

Söhbət zamanı qardaş türkmən və Azərbaycan xalqlarının mövcud səmərəli əməkdaşlığı nəzərə alınmaqla, qarşılıqlı faydalı əlaqələrin daha da inkişaf etdirilməsi üçün müvafiq dövlət və özəl qurumlar arasında münasibətlərin intensivləşdirilməsinin zəruriliyi diqqətə çatdırılıb. Görüşdə əlaqələrimizin perspektivinə dair bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev kütləvi informasiya vasitələri əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, ölkədə fəaliyyət göstərən kütləvi informasiya vasitələri əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi sahəsində həyata keçirilən tədbirlərin davam etdirilməsi məqsədilə Azərbaycanın kütləvi informasiya vasitələri əməkdaşlarının mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onlar üçün növbəti yaşayış binasının tikintisi ilə bağlı Azərbaycanın 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna ilkin olaraq 5 milyon manat ayrılsın. Maliyyə Nazirliyinə bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə "İran İslam Respublikasının Dəmir Yolları" arasında dəmir yollarının inkişafına dair Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Məhluqə Sadıqovanın 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, sərəncamda bildirilir ki, Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrılsın. Sənədə əsasən, Maliyyə Nazirliyinə Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

# Məmur təvazökar olmalı və xalqa xidmət etməlidir

## Prezident İlham Əliyev: "Heç kimə heç bir güzəşt edilmir və mənim son qərarlarım onu bir daha təsdiqləyir, hamı nəticə çıxarsın"

***Bu gün dünyada qlobal maliyyə böhranının və xoşagəlməz siyasi proseslərin, qarşıdurmaların baş alıb getdiyi bir zamanda, Azərbaycanda iqtisadi inkişafın, sosial tərəqqinin, əmin-amanlığın dayanıqlı olması, eyni zamanda, insanların həyat səviyyəsinin daha da yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər dövlət siyasətinin prioritetinə çevrilir. Əlbəttə ki, insanların həyat səviyyəsinin yüksəldilməsi həyata keçirilən dövlət siyasətinin əsasını təşkil edir. Bu da xalqın gələcəyə olan inamını daha da artırır və Prezidentin ətrafında daha sıx birləşməyə zəmin yaradır. Məhz bunun nəticəsidir ki, bu gün Prezident-xalq birliyi sarsılmazdır.***



O da faktdır ki, Prezident İlham Əliyev xalqa layiqli xidməti dövlət məmurları qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirib. Ölkə başçısının tapşırıqları əsasında son illər ayrı-ayrı nazirlərin, komitə sədrlərinin yerlərdə ictimaiyyətin nümayəndələri ilə görüşlər keçirmələri, onların qayğı və problemləri ilə yaxından maraqlanmaları da, məhz vətəndaş-məmur münasibətlərinin yüksək əsaslar üzərində qurulmasına xidmət edir.

Bir vaxtlar regionlardan paytaxta - müxtəlif dövlət məmurlarının qəbullarına üz tutan vətəndaşlar qarşılaşdıqları problemlərin aradan qaldırılması ilə əlaqədar həm vaxt itirir, həm əziyyət çəkir, həm də müəyyən qədər xərc sərf etməli olurdular. Dövlət başçısının tapşırığına əsasən, bütün bunlara son qoyuldu. Son illər nazirlərin və komitə sədrlərinin vətəndaşları regionlarda qəbul etmələri, onları diqqətlə dinləmələri və qarşılaşdıqları problemləri yerindəcə həll etmələri, həm ölkə əhalisi, həm də beynəlxalq ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Vətəndaş-məmur münasibətlərinin xoş-əhval ruhiyyədə davam etdirilməsi, dövlət məmurlarının öz qəbullarını regionlarda keçirmələri dövlətimizin başçısının "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" - vədinin reallığa çevrildiyini sübut edir.

Prezident İlham Əliyev dəfələrlə çıxışlarında bildirib ki, bu gün atılan bütün addımlar Azərbaycanın inkişafına, xalqın sosial rifah halının yaxşılaşdırılmasına xidmət edir. Bu baxımdan, vətəndaş-məmur münasibətləri mühüm əhəmiyyət kəsb edir. Bu mənada, hər dəfə olduğu kimi bu dəfə də Prezident İlham Əliyev məmurlara sərt xəbərdarlıq etdi. Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxış edən Prezident İlham Əliyev deyib ki, mən dövlət məmurlarının davranış normaları ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm və bir daha demək istəyirəm: "Hər bir dövlət məmurunu işə təyin edəndə, verdiyim tapşırıqlar arasında bunlar da var ki, məmur təvazökar olmalı, xalqa xidmət etməli, xalqla bir yerdə olmalı, özünü xalqdan yuxarı tutmamalıdır. Məmur özü və onun ailə üzvləri təkəbbürlü davranmamalıdırlar. Ancaq buna baxmayaraq, bəzən hələ də görürük ki, həm məmurlar özlərini apara bilmirlər, kobud səhvlər buraxırlar və həm də ailə üzvləri, hesab edirlər ki, onların xüsusi imtiyazı var. Azərbaycanda heç kimin heç bir imtiyazı yoxdur. Mən demişəm ki, o dövlət məmuru öz ailə üzvlərini idarə edə bilmirsə, vəzifədən çıxarılacaq və belə də oldu. Azərbaycanda xuliqanlıqla, özbaşınalıqla məşğul olanlar cəzalandırılır və cəzalandırılmalıdır. Heç kimə heç bir güzəşt edilmir və mənim son qərarlarım, onu bir daha təsdiqləyir, hamı nəticə çıxarsın".

Əlbəttə, məmurlar yaddan çıxarmamalıdırlar ki, onlar xalq üçün işləyirlər, onlar xalqın xidmətçiləridir. Vəzifəli şəxslərin yekəxanalıq etməsinin, bəzi hallarda özlərini çox təkəbbürlü aparmalarının qarşısını almaq və məmur-vətəndaş münasibətlərinin tənzimlənməsi üçün 2007-ci ilin mayında "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanun da qəbul olunub. Qanunda, birmənalı olaraq, qeyd olunur ki, dövlət qulluqçularının fəaliyyəti insanların hüquq, azadlıq və qanuni maraqlarının təmin olunmasına xidmət etməli, dövlət qulluqçusu insanların hüquq və azadlıqlarını, qanuni maraqlarını pozan, onların şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyə biləcək qərarlara və hərəkətlərə yol verməməli, qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət qulluqçusu xidməti vəzifələrinin icrası ilə bağlı fiziki şəxslərin, habelə, digər dövlət qulluqçularının şəxsi həyatı, şərəf və ləyaqəti barədə ona məlum olmuş məlumatların konfidensiallığını təmin etməli, hüquqi şəxslərin işgüzar nüfuzuna hörmətlə yanaşmalı və onların işgüzar nüfuzunu ləkələyə biləcək hərəkətlərə yol verməməlidir.

Qanunda, həmçinin, qeyd olunur ki, dövlət qulluqçusu xidməti vəzifəsini yerinə yetirərkən və ya qərar qəbul edərkən, qərəzsiz olmalı və bu zaman irqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, sosial mənşəyinə, əmlak və qulluq vəziyyətinə, əqidəsinə, ictimai və ya hər hansı digər birliyə mənsubiyyətinə görə, hər hansı şəxsin və ya şəxslər qrupunun üstünlüyünə və ya belə üstünlüyün əldə edilməsi üçün şəraitin yaradılmasına yol verməməlidir. Bununla yanaşı, dövlət qulluqçusu xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı siyasi bitərəfliyə əməl etməyə borcludur. Dövlət qulluqçusu özünün və ya maraqlı şəxslərin mənafelərinin onun xidməti vəzifələrinin yerinə yetirilməsinə təsirinə yol verməməli və bu cür təsir üçün şərait yaratmamalıdır.

Bir sözlə, dövlətin yürütdüyü siyasət Azərbaycan xalqının maraqlarını müdafiə edir. Ona görə də, hər bir məmur çalışmalıdır ki, Prezident İlham Əliyevin etimadını doğrultsun, özünü təvazökar aparsın, xalqla bir yerdə olsun.

***"Səs" Analitik Qrupu***

# Dünyanın musiqi xəritəsində Qəbələnin yeri var

## *Heydər Əliyev Fondunun möhtəşəm beynəlxalq layihəsi olan IX Qəbələ Beynəlxalq Musiqi Festivalına start veriləcək*

***Müasir dövrümüzdə Azərbaycanın iqtisadi inkişafını, ölkədə hökm sürən siyasi sabitliyin məntiqi nəticəsi olaraq, bütün sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması və dünyada təbliği ilə bağlı möhtəşəm layihələr həyata keçirilir. Bu layihələrə dövlət dəstəyinin olması milli mədəniyyətimizin daha geniş bir şəkildə təbliğinə imkan verir. Ölkə rəhbərinin bir-birinin ardınca imzaladığı sərəncamlar mədəniyyət və incəsənətimizin inkişaf etdirilməsində önəmli rol oynayır.***



Son illər Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın birbaşa himayəsi ilə Azərbaycanda milli musiqimizin, muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində gerçəkləşən irimiqyaslı layihələr öz nəticəsini verir. Azərbaycan muğamının YUNESKO-nun bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil olunması, Muğam Mərkəzinin inşa edilməsi, "Muğam aləmi" Festivalının təşkili, "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" Musiqi Albomunun nəfis şəkildə nəşri və s. Azərbaycan muğam sənətinin inkişafına təkan olmaqla yanaşı, Azərbaycan və muğam sənəti ilə bağlı geniş təsəvvürün yaranmasına da səbəbdir.

Qeyd edək ki, Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi altında həyata keçirilən digər mədəniyyət layihələri kimi, Qəbələ Festivalı da beynəlxalq sənət aləmində geniş rezonans doğurur. Bu festival sayəsində Qədim Qəbələ dünyanın musiqi xəritəsində özünəməxsus yer qazanıb. 2013-cü ildə MDB-nin mədəniyyət paytaxtı elan olunan Qəbələdə indiyədək bir neçə mədəni-humanitar tədbir keçirilib.






Heydər Əliyev Fondunun təşəbbüsü ilə hər il Qəbələdə keçirilən Beynəlxalq Festival artıq Azərbaycanın hüdudlarından kənarda geniş şöhrət qazanıb, dünyanın mədəni həyatında əlamətdar hadisəyə çevrilib. Bu ecazkar diyarda Şərq mədəniyyəti ilə bağlı olan məqamlar iştirakçılara cənnəti xatırladır. Açıq havada kamera və simfonik musiqini dinləmək, muğamın sehrinə düşmək elə cənnəti yaşamaqdır. Real mənzərə Azərbaycanın dünyada nüfuzunun gündən-günə artmasına dəlalət edir. Qədim tarixə və gözəl təbiətə malik Qəbələdə belə bir festivalın keçirilməsinin böyük əhəmiyyəti vardır. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın himayəsi ilə keçirilən bu festivalda çox görkəmli ifaçıların iştirak etməsi mötəbər tədbirin əks-sədasının bütün dünyada çox geniş yayıldığına şübhə oyatmır. Artıq bir neçə gündən sonra Heydər Əliyev Fondunun möhtəşəm beynəlxalq layihəsi olan IX Qəbələ Beynəlxalq Musiqi Festivalına start veriləcək. Festivalın konsertləri bu il Qəbələ ilə yanaşı, Şəki və İsmayıllı şəhərlərində də təşkil olunacaq. İyulun 29-da Qəbələ Kamera Musiqi Zalında festivalın ilk konserti olacaq. Axşam açıq səhnədə isə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Gənclər Kamera Orkestri çıxış edəcək. İyulun 30-da Qəbələdə açıq səhnədə festivalın açılış mərasimi olacaq və tamaşaçılara Ü.Hacıbəylinin "Leyli və Məcnun" operası təqdim ediləcək.

Festivalın sonuncu günü - avqustun 3-də Qəbələ kamera zalında "Dörd əl axşamı" adlı konsert proqramında Murad Adıgözəlzadə (piano), Oksana Yablonskaya (Rusiya, piano), Stefan Deltz (piano, ABŞ), Anna Serova (skripka, İtaliya) iştirak edəcəklər. Festivalın bağlanış mərasiminin keçiriləcəyi açıq səhnədə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinə Roberto Molinelli (İtaliya) dirijorluq edəcək. Konsertdə Nomeda Kazlaus (soprano, Litva), Azər Rzazadə (tenor), Məhərrəm Hüseynov (bariton) çıxış edəcəklər.

Zəngin proqram əsasında hazırlanmış festival çərçivəsində Azərbaycan və dünya klassiklərinin, müasir bəstəkarların əsərləri səsləndiriləcək. Qəbələ daha bir festivala ev sahibliyi edərək, xarici qonaqlara Azərbaycan mədəniyyətini tanıtmaqla yanaşı, çoxsaylı yerli musiqisevərləri dünya bəstəkarlarının klassik əsərləri və məşhur musiqiçilərlə də yaxından tanış edəcək.

**ZÜMRÜD**

# Yeni Azərbaycan Partiyası jurnalistləri mükafatlandırdı

*Mübariz Qurbanlı: "Yeni Azərbaycan Partiyası mətbuata daim açıq olan partiyadır"*



***Dünən Yeni Azərbaycan Partiyasının Mərkəzi Qərargahında Azərbaycan Milli Mətbuatının yaranmasının 142-ci ildönümü münasibətilə bir qrup jurnalistin mükafatlandırma mərasimi keçirilib. Tədbirdə çıxış edən YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı partiyanın İcra Katibliyi və İdarə Heyəti adından jurnalistləri qarşıdan gələn 22 İyul Milli Mətbuat Günü münasibətilə təbrik edərək bildirib ki, "Əkinçi"dən başlayaraq milli mətbuatımız xalqımızın maariflənməsində böyük rol oynayıb. Onun sözlərinə görə, Azərbaycan mətbuatı həm Xalq Cümhuriyyəti, həm də sovet dövründə milli maraqlarımıza xidmət edib: "Bu dövrlərdə mətbuatımız milli düşüncənin formalaşmasında və inkişafında müstəsna rol oynayıb. Eyni zamanda, mətbuatımız böyük şəxsiyyətlər yetişdirib".***

M.Qurbanlı vurğulayıb, ki, Ümummilli Lider Heydər Əliyev mətbuata çox böyük diqqət və qayğı göstərib: "Ulu Öndərin bu qayğısı yalnız müstəqillik illərini deyil, eyni zamanda, sovet dövrünü də əhatə edir: müstəqillik illərində də Ulu Öndər Heydər Əliyev mətbuatımızın inkişafı üçün ciddi addımlar atıb, bu istiqamətdə bir sıra





qərarlar verib. Bu qayğının nəticəsidir ki, Ulu Öndər Azərbaycan mətbuatının dostu kimi jurnalistlər tərəfindən yüksək ada layiq görülüb. Bu gün də Prezident İlham Əliyev mətbuata diqqət və qayğını ön planda saxlayır. Azərbaycan mətbuatına dövlət qayğısı ilə bağlı konsepsiya var. Mütəmadi olaraq, jurnalistlər təltif olunur, onların sosail problemləri həll edilir, bina tikilir. Artıq jurnalistlər üçün 255 mənzildən ibarət yeni bina da istifadəyə veriləcək. Bu, dövlət başçısının mətbuatımıza və bu sahədə çalışanlara yüksək diqqətinin ifadəsidir".

Mübariz Qurbanlı onu da bildirib ki, bu gün ölkə mətbuatı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti, Azərbaycanın inkişafını, reallaşdırılan islahatları geniş şəkildə işıqlandırır və təbliğ edir: "Bu gün kütləvi informasiya vasitələri çoxşaxəli fəaliyyət göstərir. Bununla yanaşı, Azərbaycan mətbuatının qarşında ciddi vəzifələr dayanır. Bu vəzifələrdən ən əsası Ermənistanın ölkəmizə qarşı davam edən hərbi təcavüzü və bu təcavüzün ifşa olunmasında Azərbaycan mətbuatının apardığı fəaliyyətdir".

M.Qurbanlı bildirib ki, YAP mətbuata daim açıq olan partiyadır: "Mətbuatla təmasda partiyamız bir xətt tutub ki, bu da mətbuatla fəal əməkdaşlıqdır. Partiyamızın "Yeni Azərbaycan" qəzeti kimi mətbuat orqanı var. Eyni zamanda, "Səs" və "İki sahil" qəzetləri də YAP-ın mövqeyini ifadə edən mətbuat orqanlarıdır. Bütün bunlarla yanaşı, partiyamız digər KİV-lərlə də hansı mövqedə dayanmasından, hansı siyasi təşkilatı təmsil etməsindən asılı olmayaraq daim əməkdaşlıq edir. Həmçinin, YAP-ın internet saytı fəaliyyət göstərir və partiyamızın fəalları internet resurslarından, sosial şəbəkələrdən aktiv surətdə istifadə edirlər. Bütün bunlar bizim mətbuatla əməkdaşlığımızı daha da gücləndirməyi tələb edir. Biz mətbuatla daha geniş şəkildə təmas qurmağa tərəfdarıq. Hesab edirik ki, bu, belə də olmalıdır. Çünki mətbuat cəmiyyətin güzgüsüdür, dördüncü hakimiyyətdir". M.Qurbanlı KİV nümayəndələrinə bu məsuliyyətli və şərəfli fəaliyyətlərində də uğurlar arzulayıb.

Sonda tədbirdə iştirak edən jurnalistlərə mükafatlar təqdim olunub.

**GÜLYANƏ**

# Azərbaycan inkişaf göstəricilərinə görə böyük uğurlara imza atıb

***Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 17-19-da BMT-nin mənzil-qərargahında keçirilən Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə dair ilk könüllü milli icmalının təqdim edilməsi məqsədilə Nyu-Yorkda səfərdədir.***




Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Baş nazirin müavini Əli Əhmədov BMT-nin İnkişaf Proqramının rəhbəri Akim Steyner ilə görüşüb.

Görüşdə Baş nazirin müavini son illər Azərbaycanın sürətli inkişafa nail olduğunu və bunun nəticəsində ölkədə yoxsulluq həddinin 49 faizdən 5 faizə qədər azaldığını diqqətə çatdırıb. Əli Əhmədov BMT-nin İnkişaf Proqramının Azərbaycanda həyata keçirdiyi uğurlu layihələrin müsbət nəticələr verdiyini, eyni zamanda, İnkişaf Proqramının bir sıra sahələrdə bacarıqların artırılması, texniki dəstək və regional inkişaf proqramlarına töhfə verdiyini diqqətə çatdırıb. BMT-nin İnkişaf Proqramının Azərbaycan ilə əlaqələrinin vacibliyini vurğulayan Əli Əhmədov təşkilatın növbəti illərdə də ölkəmizdə həyata keçirilən müxtəlif inkişaf proqramlarına töhfə verəcəyinə əminliyini qeyd edib. Azərbaycanın inkişaf göstəricilərinə görə son illərdə böyük uğurlara imza atdığını qeyd edən BMT-nin İnkişaf Proqramının rəhbəri Akim Steyner təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin genişləndirilməsinə böyük önəm verdiyini vurğulayıb. O, Azərbaycanın Minilliyin İnkişaf Məqsədlərinə nail olunmasında qazandığı təcrübənin Dayanıqlı İnkişaf Məqsədlərinin də həyata keçirilməsinə töhfə verəcəyini qeyd edib.

# Elmar Məmmədyarov Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb

Xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycan, Türkiyə və Türkmənistan xarici işlər nazirlərinin dördüncü üçtərəfli görüşündə iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olan Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə qardaş ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrində yüksək səviyyəli inkişafdan və siyasi dialoqdan məmnunluq ifadə olunub. Azərbaycan-Türkiyə əməkdaşlığının regiondakı vəziyyətə sabitləşdirici təsirə malik həlledici bir faktor olduğu qeyd edilib, bu baxımdan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının, o cümlədən onun son iclasının nəticələrinin yüksək qiymətləndirildiyi bildirilib. Həmçinin Azərbaycan taborunun Türkiyə Silahlı Qüvvələri ilə birlikdə Əfqanıstanda sülhyaratma missiyasında uğurla fəaliyyət göstərdiyi qeyd olunub.



Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi barəsində geniş müzakirələr aparılıb və Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalının davam etməsinin regional sülh və təhlükəsizlik üçün ciddi təhdid olduğu vurğulanıb.

Həmçinin ölkələrimizin beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlığı yüksək qiymətləndirilib. Ticarət-iqtisadi əlaqələrin davamlı, sabit və uzunmüddətli inkişafının təmin edilməsində Azərbaycan-Türkiyə Hökumətlərarası Müştərək İqtisadi Komissiyanın vacib rolu qeyd edilib və komissiyanın işinin daha da canlandırılmasının vacibliyi ifadə olunub. Həmçinin ölkələrimiz arasında ticarət-iqtisadi münasibətlərin inkişafında ikitərəfli və tranzit nəqliyyat imkanlarının (dəmiryolu, su və avtomobil) inkişaf etdirilməsi, eləcə də Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinin qısa müddətdə tamamlanmasının əhəmiyyəti qeyd edilib.

Həmçinin TANAP layihəsinin icrasının uğurla və qrafikə uyğun olaraq davam etdiyi məmnunluqla vurğulanıb.

# Təhsil naziri beynəlxalq olimpiadada medal qazanan məktəblilərlə görüşüb

Təhsil naziri Mikayıl Cabbarov Tailandda keçirilən 49-cu Beynəlxalq Kimya Olimpiadasında medal qazanan məktəblilərlə - Ramil Babazadə, Nəriman Mirişov, Turan Məmmədli ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə M.Cabbarov Prezident İlham Əliyevin təhsilə böyük önəm verdiyini vurğulayıb, bu sahənin inkişafı istiqamətində reallaşdırılan tədbirlərdən, qazanılan uğurlardan danışıb. Nazir 49-cu Beynəlxalq Kimya Olimpiadasında medal qazanan məktəbliləri təbrik edib, onlara təhsildə yeni nailiyyətlər arzulayıb. Qeyd edək ki, 49-cu Beynəlxalq Kimya Olimpiadasında məktəblilərimiz bir qızıl, bir gümüş, bir bürünc medal qazanıblar. Akademik Zərifə Əliyeva adına Liseyin eksperimental pilot siniflərinin 10-cu sinif şagirdi Ramil Babazadə 78 ölkənin məktəblilərinin iştirakı ilə keçirilən olimpiadada qızıl medal qazanıb. Bu mötəbər elm yarışında, həmçinin Bakı şəhəri 160 nömrəli Klassik Gimnaziyanın 10-cu sinif şagirdi Nəriman Mirişov gümüş, Lənkəran şəhəri 4 nömrəli humanitar təmayüllü məktəb-liseyin eksperimental pilot siniflərinin 10-cu sinif şagirdi Turan Məmmədli bürünc medala layiq görülüblər.




# ABŞ-Azərbaycan strateji müttəfiqliyi: regional və qlobal təhlükəsizlik üçün töhfə

***Xəbər verdiyimiz kimi, iyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İstanbulda ABŞ-ın dövlət katibi Reks Tillerson ilə görüşü olub. Görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən, siyasi və enerji sahələrində uğurla inkişaf etdiyi qeyd olunub. Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edilib.***

Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi" layihəsinin icrası ilə bağlı görülən işlərdən danışıb. Reks Tillerson isə, qeyd edib ki, ABŞ bu layihənin həyata keçirilməsinə bundan sonra da dəstək verəcək. ABŞ-ın dövlət katibi Azərbaycanın Əfqanıstandakı sülhməramlı əməliyyatlarda fəaliyyətini, eyni zamanda, ölkəmizin bu əməliyyatlarda logistik və nəqliyyat dəhlizi rolunu yüksək qiymətləndirdi. Göründüyü kimi, ABŞ-Azərbaycan münasibətləri yüksələn xətt üzrə inkişaf edir və keyfiyyətcə yeni mərhələyə addımlayır. Donald Tramp prezident seçildikdən sonra Azərbaycanın təşəbbüslərini dəstələyən məktublar göndərməsi və fikrini bildirməsi, bu dəfə isə, ABŞ-ın dövlət katibi Reks Tillersonun Prezident İlham Əliyevlə görüşməsi, rəsmi Vaşinqtonun mövqeyini çatdırması, isbatlayır ki, ABŞ Azərbaycanı Cənubi Qafqaz regionunda strateji tərəfdaşı kimi görür.

Ümumiyyətlə, həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində, beynəlxalq aləmdə böyük nüfuz qazanan müstəqil Azərbaycan Respublikası da qlobal proseslərdə və yeni dünya nizamının qurulmasında söz sahibi olan Amerika Birləşmiş Ştatları ilə əlaqələrə böyük əhəmiyyət verir, qarşılıqlı münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq səviyyəsində inkişafını dəstəkləyir. Rəsmi Vaşinqton da, öz növbəsində, Cənubi Qafqazın güc mərkəzinə çevrilən, sürətli iqtisadi inkişafı ilə dünyanın diqqətini cəlb edən, qlobal və regional əhəmiyyətli enerji layihələrini reallaşdıran və Avropanın enerji təhlükəsizliyi xəritəsini formalaşdıran yeni layihələrin təşəbbüskarı kimi çıxış edən qeyri-adi geostrateji önəmə malik olan respublikamızla çoxtərəfli əməkdaşlığın inkişafına, xüsusilə, maraqlı olduğunu dəfələrlə bəyan edib. Ölkələrimizin münasibətlər sisteminə nəzər yetirdikdə, bir daha əminlik yaranır ki, ABŞ-Azərbaycan əlaqələri strateji tərəfdaşlıq səviyyəsində uğurla davam etdirilir. Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlərin yaranması müstəqilliyimizin ilk illərinə təsadüf edir. 1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyini elan etdikdən sonra Amerika onu tanıyan ölkələr arasında ön sıralarda yer aldı. Diplomatik münasibətlər isə 1992-ci il fevralın 28-də quruldu. Həmin ilin mart ayında ABŞ-ın Azərbaycanda, 1992-ci ilin noyabr ayında isə, Azərbaycanın Amerikada səfirliyi fəaliyyətə başladı. Rəsmi Vaşinqton Azərbaycan neftinin və qazının dünya bazarlarına çıxarılması məsələsində ölkəmizin həyata keçirdiyi siyasəti daim dəstəkləyib. ABŞ-ın nüfuzlu şirkətlərinin də iştirakı ilə 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" bunun ən gözəl nümunəsidir.

Azərbaycanın, xüsusilə, etibarlı tərəfdaş olması, gündən-günə daha da güclənməsi, daxili və xarici siyasətini daim qlobal çağırışların tələbləri çərçivəsində yeni meyarlarla zənginləşdirməsi və Cənubi Qafqazın aparıcı dövləti kimi regionu qarşıdurma deyil, əməkdaşlıq məkanına çevrilməsi istiqamətində mühüm diplomatik-siyasi səylərini əsirgəməməsi dünyanın aparıcı dövlətlərinin, xüsusilə, ABŞ-ın diqqətini cəlb edir. Bu reallığı ifadə edən Amerikanın dövlət xadimləri, siyasətçiləri və ekspertləri Amerika üçün ölkəmizin, hətta inkişaf etmiş Avropa dövlətlərindən daha etibarlı tərəfdaş və müttəfiq olduğunu qeyd edirlər. Dünyada böyük nüfuza malik olan və bütün hesabatları, siyasi təhlilləri diqqətlə izlənilən və çoxları tərəfindən ABŞ dövlətinin mövqeyinin ifadəçisi kimi qiymətləndirilən strateji araşdırma qurumu olan Stratfor Qlobal Araşdırmalar Mərkəzinin təsisçisi və rəhbəri, siyasi analitik Corc Fridman hələ bir neçə il əvvəl səsləndirdiyi fikrini, bir daha xatırladaraq, bildirib ki, yaxın gələcəkdə ABŞ-ın dünyadakı ən yaxın müttəfiqi Azərbaycan olacaq. Elə ABŞ yeni seçilmiş prezidenti Donald Tramp da eyni kontekstdə fikirlər səsləndirir.

Belə ki, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə göndərdiyi məktubunda, qeyd etmişdi ki, Azərbaycan Amerika Birləşmiş Ştatlarının dəyərli tərəfdaşıdır: "Biz birgə səylərimizlə terrorizmə qarşı mübarizə apararaq, qlobal təhlükəsizliyi möhkəmləndirmək üçün çalışırıq. Biz Azərbaycan xalqının yanındayıq və təhlükəsizlik, iqtisadi əməkdaşlıq və demokratik prinsiplər sahəsində dialoq vasitəsilə münasibətlərimizin möhkəmləndirilməsinə sadiqik.

Azərbaycan Avropa üçün yeni enerji mənbəyidir və biz bu sahədə uzunmüddətli və uğurlu əməkdaşlığımıza görə Sizə minnətdarıq. Sizin iqtisadiyyatınızı şaxələndirmək istiqamətində gördüyünüz işlərlə bərabər, biz ölkələrimiz arasında yeni faydalı biznes əlaqələrinin qurulmasını istəyirik. Amerika Birləşmiş Ştatları, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini qətiyyətlə dəstəkləyir. Mən bu mühüm tarix münasibətilə Sizi təbrik edirəm və həm ölkələrimiz, həm də dünya üçün daha gözəl gələcək naminə Sizinlə fəal tərəfdaşımız kimi işləməyi səbirsizliklə gözləyirəm".

Göründüyü kimi, bu gün Azərbaycan regional güc kimi dünyanın supergücləri ilə fəal əməkdaşlıq münasibətlərindədir. Məhz ABŞ-la olan strateji əlaqələr bundan da sonra da inkişaf edəcək və bu əməkdaşlıq yeni-yeni uğurların qazanılmasına əsas yaradacaq.

**"Səs" Analitik Qrupu**





# YAP Cəlilabad rayon təşkilatının IX konfransı keçirildi

***Dünən YAP Cəlilabad rayon təşkilatının IX konfransı keçirilib. Konfrans nümayəndələri və qonaqlar əvvəlcə Ulu Öndər Heydər Əliyevin adını daşıyan parkda ucaldılmış abidəsi önünə tər gül-çiçək dəstələri qoymaqla, Onun xatirəsini ehtiramla yad ediblər.***

Heydər Əliyev Mərkəzində keçirilən konfransda YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı məruzə ilə çıxış edərək, təşkilatın hesabat dövrü ərzindəki fəaliyyəti barədə məlumat vermiş, partiyanın yaranma tarixinə toxunmuş, onun yarandığı tarixi şəraiti ətraflı təhlil edib, Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışı və Yeni Azərbaycan Partiyasının iqtidar partiyasına çevrilməsinin müstəqilliyimizin qorunması, dövlətçiliyimizin möhkəmlənməsi, ölkənin tərəqqiyə doğru irəliləməsini təmin edən əsas amil olduğunu xüsusi vurğulayıb.

Son illər Azərbaycanın istər iqtisadi, istərsə də beynəlxalq aləmdə qazandığı böyük uğurları konkret faktlarla xatırladan məruzəçi, bu uğurların əldə edilməsində Yeni Azərbaycan Partiyasının xüsusi xidmətlərini və bu işlərə rayon təşkilatının töhfəsini qeyd edib.

Konfransda bildirilib ki, 96 ərazi ilk təşkilatını özündə birləşdirən Cəlilabad təşkilatının hazırda 6923 nəfər üzvü var. Üzvlərin 30,5%-ni qadınlar, 25,3%-ni isə gənclər təşkil edir. Təşkilatın 37 %-i isə ali təhsilli ziyalılardan ibarətdir. Əvvəlki konfransdan ötən müddət ərzində partiya sıralarına 1576 nəfər qəbul olunub ki, bu göstərici də partiyanın kütlələr arasında populyarlığının artdığının göstəricisidir.

Konfransda YAP rayon təşkilatı qadınlar şurasının sədri Fərqanə Məmmədova, ilk təşkilat sədri Elçin Hüseynov, YAP rayon təşkilatı gənclər birliyinin sədri Vüsal Kazımov, gənclər birliyinin idarə heyətinin üzvü Günel Məmmədova çıxış ediblər.

Rayon təşkilatının IX konfransında Milli Məclisin Sosial Siyasət Komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü Hadı Rəcəbli, YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Mirkazım Kazımov, Milli Məclisin deputatı Malik Həsənov, rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov çıxış edərək, Yeni Azərbaycan Partiyasının ölkəmizin ən nüfuzlu qüvvəsinə və xalqın partiyasına çevrilməsində onun yaradıcısı, Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərini vurğulayıblar.

Məruzə və çıxışlarda bildirilib ki, Ümummilli Liderimizin siyasi xəttinin, ideyalarının bu gün partiyanın Sədri, ölkə Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi xalqımızda sabaha böyük inam doğurur. Natiqlər son dövrlər Cəlilabadın iqtisadi və mədəni həyatında böyük dəyişikliklərin baş verdiyini, geniş tikinti-quruculuq işlərinin aparıldığını iftixarla qeyd ediblər.

Konfransda təşkilati məsələlərə də baxılıb. Mirsüleyman Mirxaslı yekdilliklə yenidən YAP Cəlilabad rayon təşkilatının sədri seçilib.

Konfrans, həmçinin, sədrin müavinlərini, şurasını, idarə heyətini və nəzarət-təftiş qrupunu seçmiş, gələcək fəaliyyət dövrü üçün geniş qətnamə qəbul etmişdi.

**RÖVŞƏN NURƏDDİNOĞLU**

# Gənclər Fondu 10-cu qrant müsabiqəsinə yekun vurub



***İyulun 19-da Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun Müşahidə Şurasının 21-ci iclası keçirilib. Fonddan SİA-ya bildiriblər ki, toplantının gündəliyinə 10-cu qrant müsabiqəsinin yekunları, Fondun fəaliyyətini tənzimləyən bir sıra sənədlərə əlavə və dəyişikliklərin edilməsi, 9-cu müsabiqə çərçivəsində maliyyələşdirilmiş layihələrin icra vəziyyəti və s. məsələlər daxil edilib.***

Müşahidə Şurasının sədri, Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Tahir Süleymanov 10-cu qrant müsabiqəsi barədə məlumat verərək bildirib ki, 2017-ci il aprelin 24-dən mayın 15-dək Fonda “A” (gənclər təşkilatlarının yerli layihələri), “B” (gənclər təşkilatlarının beynəlxalq layihələri) və “C” (fiziki şəxslərin layihələri) kateqoriyaları üzrə 1799 layihə təklifi daxil olub. Mayın ikinci yarısı və iyun ayı ərzində layihələr Fondun aparatının əməkdaşları tərəfindən sistemləşdirilib, hər biri haqqında annotasiya və rəylər hazırlanıb, Bakı şəhərində və regionlarda fərdi layihə təqdim etmiş 1400-dək şəxslə görüşlər keçirilib.

Müşahidə Şurasının üzvləri əvvəlki müsabiqələr çərçivəsində maliyyələşdirilmiş layihələr haqqında təsviri və maliyyə hesabatlarını indiyədək təqdim etməmiş gənclər təşkilatlarının və fiziki şəxslərin müraciətlərinə baxılmaması barədə razılığa gəliblər. Digər təkliflər qiymətləndirilərkən, ilk növbədə, ictimai əhəmiyyət kəsb edən, gənclərin fiziki, intellektual və mənəvi inkişafına xidmət edən, real icra planı və büdcəsi olan layihələrə üstünlük verilib. Aparılan müzakirələr nəticəsində “A” kateqoriyası üzrə 186 layihədən 144-nün, “B” kateqoriyası üzrə 9 layihədən 6-nın, “C” kateqoriyası üzrə 1604 layihədən 417-nin dəstəklənməsi məqsədəuyğun sayılıb. Barələrində müsbət qərar qəbul olunmuş 567 layihənin maliyyələşdirilməsi üçün Fond tərəfindən 2 milyon 11 min 600 manat vəsaitin ayrılması nəzərdə tutulub (layihələrin siyahısı 2017-ci il iyulun 20-də Fondun internet səhifəsində yerləşdiriləcək).

İclasda “Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun Müşahidə Şurasının Reqlamenti”nə, “Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu tərəfindən qrant müsabiqələrinin keçirilməsi Qaydaları”na, “Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu tərəfindən beynəlxalq tədbirlərdə iştirak qrantının verilməsi Qaydaları”na, “Maliyyə yardımının göstərilməsi haqqında Müqavilə”yə və “Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu tərəfindən maliyyələşdirilmiş layihənin icrasının yekunu ilə bağlı resipiyentdən tələb olunan sənəd və materialların Siyahısı”na dəyişikliklərin layihələri müzakirəyə çıxarılıb.

Layihələri təqdim edən Fondun aparat rəhbəri Faiq Qürbətov bildirib ki, adıçəkilən sənədlərdə bəzi məqamlar əksini tapmadığına görə, fiziki şəxslərdən daxil olan layihələrin müddətində, beynəlxalq tədbirlərdə iştirak edənlərə nəqliyyat xərclərinin ödənilməsində, resipiyentlərdən hesabatların qəbulunda və s. müəyyən problemlər yaranır. Bunları nəzərə alaraq, Fondun aparatı qeyd olunan sənədlərə bir sıra əlavə və dəyişikliklərin olunmasını təklif edib. Təkliflər müzakirə olunduqdan sonra Müşahidə Şurası tərəfindən təsdiq edilib.

Daha sonra Fondun icraçı direktoru Fərhad Hacıyev 9-cu qrant müsabiqəsi çərçivəsində maliyyələşdirilmiş layihələrin icra vəziyyəti haqqında məlumat verib. Qeyd edib ki, həmin müsabiqə çərçivəsində gənclər təşkilatlarının “A” (yerli layihələr) kateqoriyası üzrə 110, “B” (beynəlxalq layihələr) kateqoriyası üzrə 5 layihəsinə maliyyə dəstəyi ayrılıb. Bir layihənin müəllifi qrantdan imtina edib, digərləri isə icra planında nəzərdə tutulmuş tədbirləri respublikanın şəhər və rayonlarında, habelə müvafiq xarici ölkələrdə reallaşdırılıb.

F.Hacıyev, həmçinin 2017-ci ilin birinci yarısında “D” kateqoriyası üzrə (beynəlxalq tədbirlərdə iştirak qrantları) maliyyələşdirilmiş səfərlər barədə məlumat verib. Qeyd olunub ki, 6 ay ərzində 19 gəncin xarici ölkələrdə keçirilən konfrans, təlim, seminar, simpozium, müsabiqə, festival, olimpiada və sərgilərdə iştirakına şərait yaradılıb.

İclasın gündəliyindəki məsələlər ətrafında müzakirələrdə Müşahidə Şurasının üzvləri - təhsil nazirinin müavini Ceyhun Bayramov, Mədəniyyət və Turizm Nazirliyinin aparat rəhbəri Rafiq Bayramov, “Gənclərin İntellektual İnkişafına Yardım” İctimai Birliyinin İdarə Heyətinin sədri Seymur Orucov, “İrəli” İctimai Birliyinin sədri Mirhəsən Seyidov, Gənclər Təşkilatları Milli Şurasının sədri Seymur Hüseynov, “Bizim Nəsil” Gənclərin Regional İnkişaf Assosiasiyasının sədri Nurəddin Mehdiyev, Fondun baş mühasibi Elmar Talıblı, sektor müdirləri Orxan Ərəbov və Vüsalə Niftəliyeva iştirak ediblər.

## Omar Mahmud Hayat: Pakistan Azərbaycanın ərazi bütövlüyünü qəti şəkildə və birmənalı dəstəkləyir



İyulun 19-da Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının Fəlakətlərin İdarəolunması Milli Agentliyinin sədri, general-leytenant Omar Mahmud Hayatın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Pakistan arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın uğurlu nəticələri və inkişaf perspektivləri müzakirə olunub. Qeyd olunub ki, bu əməkdaşlıq dostluq münasibətləri üzərində qurulub və bundan sonra da daim inkişaf edəcək. Hərbi əlaqələrin hər iki ölkənin maraqlarına cavab verdiyi bildirilərək bu istiqamətdə səylərin daha da artırılmasının vacibliyi vurğulanıb. Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan müdafiə naziri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verərək Pakistanın beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini dəstəkləməklə xalqımızın haqq işinə kömək etməyə hazır olmasını xüsusi qeyd edib.

Ölkəmizə səfərdən məmnunluğunu ifadə edən general-leytenant Omar Mahmud Hayat Azərbaycan-Pakistan münasibətlərinin möhkəmlənməsində bu cür görüşlərin və qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd edib. Pakistanın Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ərazi bütövlüyünü qəti şəkildə və birmənalı olaraq dəstəklədiyini vurğulayan qonaq Kəşmir məsələsində ölkəsinə göstərilən dəstəyə görə Azərbaycan xalqına minnətdar olduğunu bildirib. Tərəflər, həmçinin regional təhlükəsizlik, terrorizmlə mübarizə və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Cavid Qurbanov: BTQ ilə Qazaxıstan və Çindən yükdaşımalar 500 min konteynerədək artacaq



Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsi çərçivəsində Qarsda logistika mərkəzinin yaradılması haqqında saziş imzalanıb. Bu barədə “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanov Qars vilayətində tikinti işlərinin gedişi ilə tanış olarkən deyib. /Trend/ O qeyd edib ki, sahibkarlar hər il BTQ vasitəsilə imtiyazla iki milyon ton yük göndərə biləcəklər: “Gələcəkdə isə bu marşrut üzrə yükdaşıma artırılacaq”. C.Qurbanov ümid etdiyini bildirib ki, gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolu ilə Qazaxıstan və Çindən yükdaşımalar 500 min konteynerədək artacaq.




# “SOCAR Balkans” və “Bulgartransgaz” arasında Anlaşma memorandumu imzalanıb

“SOCAR Balkans” və “Bulgartransgaz” şirkətləri arasında Anlaşma memorandumu imzalanıb. Bolqarıstan Enerji Nazirliyinin məlumatına əsasən, Bolqarıstanın paytaxtı Sofiyada SOCAR-ın törəmə şirkəti “SOCAR Balkans” və “Bulgartransgaz” şirkəti arasında Anlaşma memorandumu imzalanıb. Tədbirdə Bolqarıstanın energetika naziri Temenujka Petkova, Azərbaycanın bu ölkədəki səfiri Nərgiz Qurbanova və “SOCAR Balkans” şirkətinin icraçı direktoru Murad Heydərov iştirak ediblər. Sənədin əsas məqsədi Bolqarıstana və bu dövlət üzərindən digər Cənub-Şərqi Avropa ölkələrinə əlavə qaz tədarükü yolları üçün imkanların araşdırılmasıdır.

# Ermənistan-Rusiya münasibətləri:
## vassalın qaranlıq gələcəyi



***Cari ildə Rusiyanın Ermənistana İskəndər zenit-raket kompleksini verməsindən sonra başda Prezident Serj Sərkisyan olmaqla, Rusiyanı dəstəkləyən dairələr cidd-cəhdlə bu ölkənin təbliğatını aparırdısa, son zamanlarda Ermənistan-Rusiya münasibətlərdə soyuq şimal küləyi əsir. İndi təbliğat meydanında səssizlik hökm sürür.***

Ermənistan-Rusiya münasibətləri heç bir zaman iki müstəqil dövlət arasındakı münasibətlər kimi olmamışdır və bundan sonra da olmayacaqdır. Ermənistan siyasi, iqtisadi, hərbi və təhlükəsizlik baxımından Rusiyadan asılı vəziyyətdədir. Maraqlı odur ki, bu asılılıq hər keçən gün Ermənistanın əleyhinə artır. Beynəlxalq münasibətlər sistemində iki dövlət arasındakı münasibətlər qarşılıqlı asılılıq olaraq dəyərləndirilir. Tərəflər özlərinin maraqlarını ortaq məxrəcə gətirərək əməkdaşlıq edir. Ermənistan-Rusiya münasibətlərində isə maraqların ortaq məxrəcə gətirilməsindən söhbət belə gedə bilməz. Tərəzi kəfəsinin Rusiya tərəfi həmişə ağır gəlir.

Ermənistanın Rusiyadan asılılığını gücləndirən və davam etdirən başlıca amil Azərbaycan torpaqlarını işğal etməsidir. Bu amil əsasən digər sahələrdəki asılılığı da bərabərində gətirir. Ermənistan 25 ildir Dağlıq Qarabağ və ətraf rayonları işğal altında saxlayır. Halbuki bu qondarma qurumu nə özünə birləşdirə, nə də müstəqilliyinin tanınmasına nail ola bilir. Dağlıq Qarabağ sözün həqiqi mənasında Ermənistanın kürəyində künküldür. Ermənistanın müalicə etməkdən imtina etdiyi o künkülü isə hər keçən il onun onurğa sütununu bir az daha əyir, bir az daha Rusiyaya doğru meylli edir, bir az daha bu ölkədən asılılığı artırır.

Bir neçə gün əvvəl Azərbaycanın Rusiyadan aldığı müasir silah növlərinin Azərbaycana gətirilməsi xəbəri, Azərbaycanın müdafiə naziri Zakir Həsənovun Sputnik İnformasiya Agentliyinə verdiyi müsahibədə daha əvvəl Rusiyadan alınan müasir silahların ötən ilin aprel hadisələri zamanı istifadə edildiyini və ciddi nəticələrin əldə olunduğunu bildirməsi Ermənistan KİV-də müxtəlif aspektlərdən müzakirə olunur və hökumətdən Rusiya ilə münasibətlərin nəzərdən keçirilməsi tələb edilir.

Rusiya Avrasiya İqtisadi Birliyi çərçivəsində Ermənistanın iqtisadi siyasətinə, bu ölkədə yerləşən 102-ci hərbi bazası çərçivəsində təhlükəsizlik siyasətinə, Rusiyada olan Ermənistan vətəndaşı miqrantlarına münasibət çərçivəsində isə daxili siyasətinə nəzarət edə bilir. Ermənistan Avrasiya İqtisadi Birliyində qaldığı müddətdə müstəqil iqtisadi siyasət həyata keçirməsi mümkün deyil. Ermənistan və Avropa İttifaqı arasında 2013-cü il 24 iyul tarixində "Dərin və Geniş Əhatəli Ticarət Zonası Haqqında" müqavilə mətni üzərində razılığa gəlinmişdi. Tərəflərin bu müqaviləni imzalaması Ermənistan üçün müəyyən perspektivlər vəd edirdi. Amma Rusiya Ermənistanın bu müqaviləni imzalamasına etiraz etmiş, onu müqaviləni imzalamaqdan çəkindirmiş və Avrasiya Birliyi və Gömrük Birliyinə üzv olmağa məcbur etmişdir.

Bir neçə gün bundan əvvəl Ruiya Dövlət Duması MDB-yə üzv dövlətlərin vətəndaşlarının milli sürücülük vəsiqəsi ilə ölkə daxilində nəqliyyat vasitələrinin istifadə edilməsini qadağan edən qanun qəbul etmişdi. Bu qanun Avrasiya İqtisadi Birliyinə üzv olan dövlətlərin vətəndaşlarına şamil edilməsə də, nədənsə Ermənistan vətəndaşlarına bu haqdan kənarda saxlanılmışdır. Ermənistan Avrasiya İqtisadi Birliyi ilə əməkdaşlığın perspektivlərdindən ağızdolusu danışdığı bir vaxtda Rusiyanın Ermənistan vətəndaşlarının milli sürücülük vəsiqəsi ilə nəqliyyat vasitəsi istifadə etməsinə qadağa qoyması Ermənistanın tranzit yükdaşımalarına vurulmuş bir zərbədir. Elə bu ərəfədə Ermənistan Prezidenti Rusiya ilə münasibətlərin nəzərdən keçirilməsi tələbini şərh edərkən belə demişdir: "Bu çox təhlükəli sözdür və çox pis vəziyyət yarada bilər. Münasibətlərin nəzərdən keçirilməsi dedikdə siz kiminlə yaxşı münasibət qurmaq istəyirsiniz-Türkiyə və NATO ilə? Belə düşünmək olar ki, guya onlar qollarını açıb Ermənistanın onlara doğru gəlməsini gözləyir?"[1] Ölkə başçısının belə tragikomik izahatla Rusiyadan asılılığına haqq qazandırması məntiqlə izah edilə bilməz.

Ermənistan-Rusiya münasibətlərində problem olan digər bir məsələ Rusiyanın Türkiyəyə son model İskəndər zenit-raket kompleksini satacağı haqqında xəbər olmuşdur. Maraqlı odur ki, Türkiyənin bu silahın bir diviziyonunu Yunanıstan ilə, bir diviziyonunu da Ermənistan ilə sərhəddə yerləşdirəcəyi barədə informasiyalar yayılır və bu kimi informasiyalar Ermənistanı narahat edir.

Ermənistan dövləti, hökuməti və vətəndaşları anlamalıdır ki, Azərbaycanın Dağlıq Qarabağa təklif etdiyi yüksək muxtariyyat statusu ilə razılaşıb münaqişəni həll etmədikləri müddətdə iqtisadi inkişafa, siyasi sabitliyə təhlükəsizlik problemlərinin həllinə fürsət tapmayacaqlar. Ermənistan sağlam məntiqlə düşünməyə məcburdur, sadəcə bundan başqa yolu qalmayıb.

***Hatəm Cabbarlı,***
***siyasi elmlər doktoru***
***Newtimes.az***

# Aqrar sahəyə vergi güzəştləri davam etdiriləcək



***Aqrar sahənin inkişafında vergi siyasəti mühüm rol oynadığından inkişaf proqramlarının həyata keçirilməsində vergi güzəştləri və təşviqi tədbirləri də prioritetlərdən olacaq. AZƏRTAC "vergiler.az" saytına istinadla bildirir ki, 15 ildən artıqdır dövlət səmərəli vergi rejimi tətbiq etməklə kənd təsərrüfatının inkişafını stimullaşdırmaqdadır. 1999-cu ildən kənd təsərrüfatı sektoru, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddır. Bu isə təxminən hər il 130-140 milyon manat vəsaitin istehsalçıda qalması deməkdir.***

Ümumilikdə, bu siyasətin həyata keçirilməsi sayəsində son 17 ildə 2 milyard manata yaxın vəsait fermerlərin sərəncamında qalıb ki, bu da kənd təsərrüfatı istehsalçıları üçün əlavə maliyyə, investisiya mənbəyi təşkil edir.

Qeyd olunub ki, 2017-ci ildən qüvvəyə minən Vergi Məcəlləsinə əlavə və dəyişikliklərin mühüm istiqamətlərindən biri aqrar sahədə çalışan kiçik və orta sahibkarlığın fəaliyyətini stimullaşdırmaq, onların vergi yükünü optimallaşdırmaqdır. Bu məqsədlə buğda ununun və çörəyin istehsalı və satışı, quş ətinin satışı 3 il müddətinə ƏDV-dən azad olunub. Kənd təsərrüfatı istehsalçıları 2019-cu il yanvarın 1-dək vergi güzəştləri ilə əhatə olunacaqlar. Aqrar sahənin əsas sektorları üzrə Strateji Yol Xəritəsində stimullaşdırıcı vergi-gömrük siyasətinin həyata keçirilməsi, güzəştli kreditlərin verilməsi sisteminin təkmilləşdirilməsi, xarici bazarlara çıxış üçün bir sıra məhsullara tətbiq edilən gömrük-idxal tarif dərəcələrinə yenidən baxılması, o cümlədən mövsümi rüsumların tətbiq edilməsi nəzərdə tutulur.

Kənd təsərrüfatının maliyyə resurslarına tələbatının ödənilməsi və girovsuz kreditlərin tətbiqi, sektorun kreditləşməsinə yönəlik stimullaşdırma tədbirləri də əsas prioritetlərdəndir.

# Bakıda Azərbaycan-Türkmənistan-Türkiyə xarici işlər nazirlərinin dördüncü üçtərəfli görüşü keçirilib

## Azərbaycan-Türkmənistan-Türkiyə xarici işlər nazirlərinin üçtərəfli görüşünün yekunlarına dair birgə bəyanat qəbul olunub




***İyulun 19-da Bakıda Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun, Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun və Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovun iştirakı ilə Azərbaycan-Türkmənistan-Türkiyə xarici işlər nazirlərinin dördüncü üçtərəfli görüşü keçirilib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan-Türkmənistan-Türkiyə xarici işlər nazirlərinin dördüncü üçtərəfli görüşünün yekunlarına dair birgə bəyanat qəbul olunub. Bəyanatda deyilir ki, tərəflər: 2014-cü il mayın 26-da Bakı şəhərində, 2015-ci il yanvarın 29-da Aşqabad şəhərində və 2015-ci il avqustun 28-də Antalya şəhərində keçirilmiş xarici işlər nazirlərinin üçtərəfli görüşlərində qəbul olunmuş birgə bəyanatlara sadiqliklərini təsdiqləyərək, “2015-2017-ci illər üçün Azərbaycan-Türkmənistan-Türkiyə əməkdaşlığının Çərçivə Proqramı”nın həyata keçirilməsi üzrə birgə səylərin vacibliyini qeyd etdilər;***

Qarşılıqlı şəkildə dövlətlərinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmətlərini və qətiyyətli dəstəklərini bir daha təsdiqlədilər;

Bu kontekstdə münaqişələrin qısa zamanda suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə riayət əsasında həllinin zəruriliyini qeyd etdilər;

Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistanın Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlığı Təşkilatı, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) və digər müvafiq regional və beynəlxalq təşkilatlarda, həmçinin Asiyanın Ürəyi-İstanbul Prosesi kimi arenalarda və qarşılıqlı fəaliyyətin vacibliyini qeyd etdilər;

Terrorçuluq, separatizm, ekstremizm və ayrı-seçkiliyin bütün forma və təzahürləri, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik maddələr və onların prekursorlarının və silahların qanunsuz dövriyyəsi, insan alveri, mədəni və tarixi irs əleyhinə cinayətlər, kibercinayətlər və qanunsuz miqrasiyaya qarşı mübarizədə əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini vurğuladılar;

2014-cü il iyunun 5-də Bodrum şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Dördüncü Zirvə Görüşü zamanı baş tutmuş Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistan prezidentlərinin üçtərəfli görüşünün yüksək əhəmiyyətini xüsusi olaraq qeyd etdilər və dövlət başçılarının Türkmənistanda keçirilməsi nəzərdə tutulan Birinci Üçtərəfli Zirvə Görüşünün əhəmiyyətini vurğuladılar;

Üçtərəfli iqtisadi əməkdaşlığın, habelə üç ölkə arasında iqtisadi tərəfdaşlığın müqavilə-hüquq bazasının gücləndirilməsinin vacibliyini qeyd etdilər;

İqtisadi-ticari əməkdaşlığı gücləndirmək, sərmayə və ticarətin təşviq edilməsi üçün mövcud potensialdan istifadə etmək, həmçinin gömrük, enerji, nəqliyyat, telekommunikasiya, sənaye, kənd təsərrüfatı, elm, təhsil, mədəniyyət, turizm və ətraf mühit sahələrində birgə layihə və proqramların həyata keçirilməsi yolu ilə əməkdaşlığın daha da inkişaf etdirilməsinə dəstək verəcəklərinə dair razılığa gəldilər;

Dövlət başçılarının Türkmənistanda keçiriləcək Üçtərəfli Zirvə Görüşü zamanı Azərbaycan-Türkiyə-Türkmənistan Biznes Forumunun keçirilməsi imkanlarının nəzərdən keçiriləcəyinə dair razılığa gəldilər;

Hər üç ölkənin kiçik və orta sahibkarlıq müəssisələri arasında mövcud əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini vurğuladılar;

Nəqliyyat infrastrukturunun inkişafı və tranzit potensialının artırılması istiqamətində yeni layihələrin həyata keçirilməsi üçün əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğuladılar;

Bu kontekstdə, bu ölkələri birləşdirən nəqliyyat-tranzit dəhlizlərinə dair geniş spektrli məsələlərin müzakirə olunduğu üç ölkənin nəqliyyat nazirlərinin 2016-cı il sentyabrın 1-də Aşqabad şəhərində keçirilmiş birinci görüşünün əhəmiyyətini qeyd etdilər;

Xəzər dənizindən keçməklə Türkmənistanı Azərbaycan Respublikası ilə birləşdirən və Türkiyə vasitəsilə (Bakı-Tbilisi-Qars dəmir yolu) Avropaya çıxışı olan Şərq-Qərb Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişaf perspektivlərini müzakirə etdilər və üç ölkənin Böyük İpək Yolunun bərpasına yönəlmiş səylərinə mühüm töhfə verəcəyini vurğuladılar;

Xəzər dənizi hövzəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Türkmənbaşı Beynəlxalq Limanının Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizi üzərində mühüm nəqliyyat logistika qovşağına, eyni zamanda, Avropa və Asiyanı birləşdirən geniş beynəlxalq logistika şəbəkəsinin bir hissəsinə çevriləcəyini və bununla da tarixi İpək Yolunun yenidən canlanmasına xüsusi töhfə verəcəyini qeyd etdilər;

Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə nəqliyyat dəhlizi layihəsinin əhəmiyyətini vurğulayaraq, sözügedən dəhlizə zəruri dəstəyin davam etdiriləcəyini bəyan etdilər;

Regionda rəqəmsal informasiya cəmiyyətinin qurulması üçün ölkələr arasında informasiya (internet) infrastrukturunun yaradılması vasitəsilə davamlı əməkdaşlığın gücləndirilməsini nəzərdə tutan, habelə Avropa və Asiya arasında telekommunikasiya tranziti yollarının diversifikasiyası və təkmilləşdirilməsinə dəstək olan Trans-Avrasiya Super İnformasiya Magistralı (TASİM) layihəsinin Trans-Xəzər hissəsinin önəmliliyini yüksək qiymətləndirərək, tərəflər dövlət və özəl sektorunun iştirakını həvəsləndirməklə layihəyə dəstək olacaqları barədə razılığa gəldilər;

Enerji sahəsində əməkdaşlığın inkişafının vacibliyini nəzərə alaraq, Azərbaycan və Türkmənistan təbii qazının Azərbaycan və Türkiyə vasitəsilə Avropa və digər beynəlxalq bazarlara ötürülməsinin xüsusi əhəmiyyətini qeyd etdilər;

Təhsil, elm, mədəniyyət və digər humanitar sahələrdə Azərbaycan, türk və türkmən xalqlarının ümumi mədəniyyət, dil və tarixi irsinə əsaslanan əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini vurğuladılar;

Türkdilli dövlətlər arasında hərtərəfli əməkdaşlığın səmərəliliyinin daha da artırılması məqsədilə adıçəkilən dövlətlərin rəhbərlərinin Zirvə Görüşlərinin və ikitərəfli, həmçinin çoxtərəfli təmaslarının vacibliyini qeyd etdilər;

İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığın önəmliliyini qeyd etdilər və hər üç dövlət üçün ümumi maraq kəsb edən məsələlər üzrə qarşılıqlı dəstəyin verilməsinin vacibliyini vurğuladılar;

Azərbaycan Respublikasında 2017-ci ilin “İslam Həmrəyliyi İli” elan edilməsini və bu kontekstdə İslam mədəniyyəti və mənəvi dəyərlərinin bütün dünyada təşviqinə mühüm töhfə kimi Bakıda yüksək səviyyədə təşkil olunmuş IV İslam Həmrəylik Oyunlarının əhəmiyyətini qeyd etdilər;

2017-ci ilin sentyabrında Aşqabadda keçiriləcək 5-ci Asiya Qapalı və Döyüş Növləri Oyunlarının uğurlu təşkilinə dəstəklərini ifadə etdilər;

Türkmənistanda keçiriləcək Zirvə Görüşü zamanı imzalanması nəzərdə tutulan enerji, nəqliyyat, iqtisadiyyat, ticarət, gömrük, elm, təhsil və mədəniyyət sahələrində saziş layihələri ilə bağlı əldə edilmiş irəliləyişi vurğuladılar.

Siyasi dialoq, qlobal və regional məsələlər üzrə əməkdaşlıq və əlaqələndirmənin gələcəkdə də davam etdirilməsi məqsədi ilə hazırkı üçtərəfli formatda mütəmadi görüşlərin keçirilməsinin vacibliyini qeyd etdilər. Növbəti üçtərəfli görüşün Türkmənistanda keçirilməsinə dair razılığa gəldilər. Görüşün tarixi diplomatik kanallar vasitəsilə razılaşdırılacaqdır.

## Türkiyə ilə Azərbaycan arasında tranzit daşımalar haqqında elektron məlumat mübadiləsi sistemi yaradılacaq



Türkiyə ilə Azərbaycan arasında tranzit daşımalar haqqında ilkin elektron məlumat mübadiləsi sistemi yaradılacaq. AZƏRTAC xəbər verir ki, dünən Bakıda keçirilən Azərbaycan, Gürcüstan və Türkiyə gömrük xidməti rəhbərlərinin üçtərəfli yüksək səviyyəli görüşündə “Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında gömrük məsələlərində üçtərəfli geniş əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə dair Birgə Bəyanat” qəbul edilib. Həmçinin “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında avtomobil nəqliyyatı ilə tranzit daşımalar haqqında ilkin elektron məlumat mübadiləsi sisteminin yaradılmasına dair Saziş” imzalanıb.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

20 iyul 2017-ci il

# Qarabağdan kütləvi köç

*Azərbaycan Ordusunun hərbi təlimləri Ermənistanda müharibə xofunu artırıb*



***Son zamanlar Ermənistanda cərəyan edən hadisələr öz fəsad və nəticələrinə görə ölkə əhalisi üçün olduqca acınacaqlı vəziyyət yaradıb. Məhz bu hadisələr erməniləri öz gələcəyi ilə bağlı ciddi seçim qarşısında qoymalıdır.***

Mövcud olduqları vaxtdan ermənilər özlərini qonşu dövlətlərin "zülmlərinə" məruz qalan "əzabkeş" xalq kimi qələmə verməyə çalışıblar. Bu günlərdə Ermənistanda baş verən proseslər, o cümlədən, Ermənistanın vassal dövlətə çevrilməsi, inhisarlaşmış iqtisadiyyatının sürətlə tənəzzülə uğraması, rüşvətxor məmurların və onların yaxınlarının özbaşınalıqlarının geniş vüsət alması, istehlak qiymətlərinin mütəmadi artımı, əhalinin ölkəni kütləvi şəkildə tərk etməsi, erməni əsgərlərinin nizamnamədən kənar münasibətlərin qurbanı olması və bir sıra digər neqativ hallar ermənilərin, məhz özlərinin seçdikləri Serj Sarkisyan hakimiyyəti tərəfindən zülmə məruz qalmalarını sübut edir.







Dağlıq Qarabağ münaqişəsinin həllində ciddi irəliləyişin olmaması və buna paralel olaraq, Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində təxribatlara ara verməməsi, rəsmi Bakını özünün təhlükəsizliyini təmin etmək üçün müvafiq addımlar atmağa məcbur etməkdədir. Bu baxımdan, son günlər Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi genişmiqyaslı hərbi təlimlər, əslində, münaqişənin həllində hər vasitə ilə status-kvonun qorunub-saxlanılmasına xidmət edən Ermənistana və bu məsələdə onu dəstəkləyən dövlətlərə özünəməxsus şəkildə xəbərdarlıq hesab edilə bilər. Xatırladaq ki, Azərbaycan Ordusunun istehkamçı hissələrinin, həmçinin, Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə birgə hərbi təlimləri Ermmənistanda təşvişlə qarşılanıb.

### Azərbaycan Ordusu tərəfindən keçirilən hərbi təlimlər Ermənistanda müharibə xofunu artırmaqdadır

Mütəmadi olaraq Azərbaycan Ordusu tərəfindən keçirilən hərbi təlimlər Ermənistanın siyasi dairələrində və ictimaiyyətində çaşqınlıqla qarşılanmaqda, düşmən ölkədə müharibə xofunu artırmaqdadır. Bunu erməni "politoloq"larının məsələ ilə bağlı açıqlamaları da sübut etməkdədir. Məsələn, "Daşnaksütyun" Partiyasının rəsmisi Kiro Manoyan mətbuata açıqlamasında beynəlxalq aləmi, o cümlədən, ATƏT Minsk Qrupuna həmsədr ölkələri bölgədə yeni müharibənin başlanmasına izn verməməyə çağırıb. O eyni zamanda, iddia edib ki, Naxçıvandakı hərbi təlimlər İran üçün də təhlükədir. Manoyanın bu açıqlaması, əslində, müharibə qorxusu altında İranı da "oyun"a cəlb etmək sərsəmləməsindən başqa bir şey deyil.

Son günlər işğalçı ölkədə əhalinin ölkəni tərk etməsinin əsas səbəbi sosial-iqtisadi vəziyyətin ağırlığı, həmçinin, siyasi problemlərin mövcud olmasıdır. Qeyd edək ki, 2002-ci ildən başlayaraq, hər il 30 min adam Ermənistanı tərk edərək, başqa ölkələrə üz tutur. Ermənistan stasistikasının məlumatına görə, 2002-2007-ci illərdə Ermənistanı hər il 25-26 min adam tərk edib. 2007-2015-ci illərdə isə 28-30 min adam müxtəlif səbəblərdən yaxın və uzaq xarici ölkələrə üz tutub.

Bununla belə, qeyri-rəsmi məlumatlara görə, hər il Ermənistanı 130-150 min adam tərk edir və sonradan geri qayıtmırlar. Yerli ekspertlər erməni əhalinin ölkəni tərk etməsinin əsas səbəblərdən birinin Dağlıq Qarabağ münaqişəsinin uzanması ilə bağlı olduğunu vurğulayırlar. Çünki əksər ailələr övladlarının əsgər kimi Qarabağda mənasız ölümə göndərilmələrini istəmirlər. Ermənistan hökuməti, məhz bunu nəzərə alaraq, 14 yaşdan yuxarı oğlan uşaqlarının ölkəni tərk etmələri üzərinə qadağa qoyub.

### 2008-2014-cü illər ərzində Ermənistanı, ümumilikdə 224 min 300 nəfər tərk edib.

Sarkisyan iqtidarının mənsubları and-aman edirlər ki, gedənlər həmişəlik yox, müvəqqəti gedirlər və müşahidə olunan da "sadəcə, əmək miqrasiyası"dır. Amma reallıq odur ki, əgər insan ilin 8-9 və hətta 7 ayını başqa ölkədə yaşayırsa, həmin dövlətin sakini sayılır. Mühacirət artıq Ermənistanın milli təhlükəsizliyi təki mifik anlamı da yırğalayan bəlaya çevrilib.

Xüsusilə, Ermənistanda baş verən acınacaqlı proseslər, o cümlədən, Ermənistanın vassal dövlətə çevrilməsi, inhisarlaşmış iqtisadiyyatının sürətlə tənəzzülə uğraması, rüşvətxor məmurların və onların yaxınlarının özbaşınalıqlarının geniş vüsət alması, istehlak qiymətlərinin, mütəmadi artımı, əhalinin ölkəni kütləvi şəkildə tərk etməsi, erməni əsgərlərin nizamnamədən kənar münasibətlərin qurbanı olması və bir sıra digər neqativ hallar ermənilərin, məhz özlərinin "seçdikləri" Serj Sarkisyan hakimiyyəti tərəfindən zülmə məruz qalmasını sübut edir. 2008-2014-cü illər ərzində Ermənistanı, ümumilikdə 224 min 300 nəfər tərk edib. 2013-2014-cü illər ərzində ölkəni tərk edən əhali arasında təhsil alan şagirdlərin sayı 5 500 nəfər təşkil edib.

Beləliklə, son zamanlar yaranmış vəziyyətlə bağlı işğalçı ölkəni tərk edənlərin sayının getdikcə artması, onu bir daha sübut edir ki, Ermənistanın dövlət kimi məhv olması prosesi sürətlənəcək.

**A.SƏMƏDOVA**

## "Ermənistanın həmsədr ölkə ilə münasibətlərində ciddi problem yaranıb"



"Fransanın Ermənistandakı səfiri Jan-Fransua Şarpantye son mətbuat konfransında Ermənistanın ünvanına kəskin fikirlər səsləndirdi. O iki ölkə arasında mal dövriyyəsinin cəmi 50 milyon avro olduğunu bildirdi". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib. Politoloqun sözlərinə görə, Ermənistanın və Fransada bir qrup ermənipərəstin Fransa-Ermənistan dostluq münasibətləri barədə nağılları fonunda səfirin bu açıqlaması soyuq duş oldu: "Nəzərə almaq lazımdır ki, səfir iyun ayının əvvəlində də keçirdiyi mətbuat konfransında iki ölkə münasibətləri barədə müsbət olmayan fikirlər səsləndirmişdi. Fransa səfirinin Dağlıq Qarabağ tənzimlənməsi ilə bağlı verdiyi açıqlama daha çox diqqət çəkir: Fransa Ermənistanın və Azərbaycanın başçıları arasında daimi dialoqun tərəfdarıdır. Səfirin bəyan etdiyi bu rəsmi mövqe Ermənistanın Dağlıq Qarabağ məsələsindəki mövqeyinə iki prizmadan ziddir:

I. Ermənistan Dağlıq Qarabağ tənzimlənməsində "iki tərəf" terminindən yayındığı halda Fransa səfiri qətiyyətli şəkildə "iki ölkə başçı" termini işlədir.

II. Səfir daimi dialoqun tərəfdarıdır. Rəsmi Yerevan isə danışıqlarda deyil, imitasiyada maraqlıdır.

Moskvada ermənilərin tərəfdarlarının sayı artıb. Bu hətta özünü Rusiyanın Dağlıq Qarabağ tənzimlənməsində mövqeyində göstərir. Amma bu, hələ bütün Rusiyanın, eləcə də Kremlin Ermənistana tərəf mövqeyinin dəyişilməsi deyil. Fikrimizi çatdırmaq üçün erməni mətbuatında yayılmış şərhə istinad etmək istəyirik; RF XİN-nin Azərbaycanı tənqid etməsi Azərbaycanın silah müqavilələrində pul ödəmələrini gecikdirməsinə qarşı təzyiq vasitəsidir. Ermənilər əgər öz ermənilərinə inanmırlarsa, RF-in Azərbaycandakı səfiri V.Doroxinə inansınlar. Səfirin fikrincə, Rusiya üçün Azərbaycanla münasibətlər böyük dəyər kəsb edir. Rusiya ilə Ermənistanın arasındakı münasibətlərdə isə çox ciddi problemlər var. Ermənistan öz ərazisində yeni hərbi baza yaratmaqdan və Suriyaya qoşun göndərməkdən imtina edir. Kreml bunu cavabsız qoya bilməz.

Vaşinqton səfir R.Millzin dili ilə Ermənistanın energetika sahəsinə 8 milyard dollar investisiya qoymağa hazır olduğunu bildirdi. 8 milyard dollarlıq investisiya üçün ABŞ heç bir qeyri-adi şərt irəli sürmür. Ermənistan hələlik ABŞ-ın investisiya təklifinə müsbət cavab verə bilməyib. Hər halda Vaşinqton Yerevanın başını sığallamayacaq. S.Sərkisyan hakimiyyətinin apardığı siyasətin saxta mahiyyəti həmsədr ölkələrə bəlli olur. Amma baş verənlər göstərir ki, S.Sərkisyanın ətrafı da bu siyasətin mahiyyətini başa düşür. Hakim "Respublika" partiyasının rəhbərlərindən biri, keçmiş təhsil naziri A.Aşotyan Azərbaycan rəsmilərinin Azərbaycanda diplomatiya günü ilə bağlı yaydığı açıqlamalar və təbriklərə çox orijinal cavab verdi. Belə başa düşmək olar ki, A.Aşotyan Süleyman Peyğəmbərin həvarilərindən birincisi olmağa layiq imiş. Çünki o ilanların və digər heyvanların dilini bilirmiş. Yerevan şəhərində ilanların üzə çıxması Ermənistan mətbuatında ən çox müzakirə olunan mövzulardandır. İlanlar üzə çıxırsa və zəlzələ baş vermirsə, deməli ilanlar ayrı mesajın daşıyıcılarıdır. Bu mesaj isə belədir: Yerevan yaxın illərdə adamsız şəhərə çevriləcək. Ona görə ilanlar indidən Yerevanda məskunlaşırlar. İş də burasındadır ki, ilanların dilindən bu mesajı A.Aşotyan başa düşür. Ona görə də ilanların bu mesajını Ermənistan cəmiyyətinə çatdırmaq üçün Azərbaycan diplomatlarına tarixin qədimliyindən başlayan astronomik miqyaslı müraciət ünvanladı. A.Aşotyanın belə müraciəti Ermənistana çatanadək kiçilsə də, cüzi də olsa ermənilərə çatacaq. Hakim partiyanın digər rəsmisi E.Şarmazanovun da heyvanlara yanaşması dəyişir. Görünür, A.Aşotyanın heyvan dilini bilməsi E.Şarmazanovda paxıllıq hissi yaradıb. Həmsədr ölkələrlə münasibəti pisləşən Yerevana ilanların münasibəti istiləşib".

# Vətənin xaricdə layiqli təmsilçiləri

***Yarandığı zamandan Azərbaycan milli mətbuatı müəyyən çətinliklər və uğurlarla qarşılaşmışdır. 1875-ci il 22 iyul tarixində əsası qoyulan "Əkinçi" qəzeti publisistik üslubun təməl daşını qoydu. Bu hadisə bir çox dünya ölkələrində hələ mətbuatın olmadığı bir zamanda baş verdi. "Əkinçi"nin səhifələrinin arxasında tərəqqiyə, mədəniyyətə meyilli, milləti yolunda şam kimi əriyən bir insan dayanırdı. Anadilli mətbuatımızın əsasını qoyan böyük maarifçi-demokrat Həsən bəy Zərdabinin yaratdığı qəzet 1875-ci ildən 1877-ci ilədək iki həftədə bir dəfə olmaqla oxuculara təqdim edildi.***



Azad düşüncənin, söz və fikir plüralizminin daşıyıcısı olan milli mətbuatımız böyük maarifpərvər ziyalı Həsən bəy Zərdabi irsinə sadiq qalaraq inkişaf yolu keçib, tanınıb və cəmiyyətdə özünə nüfuz qazanıb. Milli mətbuatımız böyük mütəfəkkirlərinin əməyi sayəsində zaman-zaman inkişaf edərək, genişlənmiş, xalqın istək və arzularını, Azərbaycan həqiqətlərini - ictimai, siyasi və mədəni hadisələri işıqlandıran orqana çevrilmişdir. Qələm və söz əhlinin fədəkarlığı milli mətbuatın inkişafına mane olan kəslərin üzərində qələbə çalaraq formalaşdı, "Sözün düzünü demək hünərdir" prinsipi ilə ziyalıları ətrafına toplaya bildi. Milli mətbuatın təşəkkül tapması prosesi o qədər sürətlə gedirdi ki, onların sayı durmadan artırdı.

Məlumdur ki, Azərbaycan diasporunun coğrafi mövqeyi genişlənərək, Asiya və Avropadan başlayaraq, Amerika, Afrika və Avstraliyayadək yayılmışdır. XIX əsrin ortalarından başlayaraq, Azərbaycan diaspor mətbuatı formalaşmış, XX əsrin ilk illərində artıq mətbuat orqanlarının inkişafı sürətlənmişdi. Tarixin müxtəlif mərhələlərində Azərbaycan xalqı, ardıcıl olaraq, digər ölkələrin əhalisi ilə sosial-mədəni əlaqədə olmağa, elmi-iqtisadi tərəfdaşlıq və qarşılıqlı əməkdaşlığa böyük maraq göstərmişdir. Bunun nəticəsidir ki, Azərbaycan və azərbaycanlılar heç zaman dünya xalqlarından təcrid olunmamış, əksinə, ölkədə informasiya işinin düzgün təşkilinə çalışaraq, digər xalqların sosial-siyasi həyatı, iqtisadi və mədəni tərəqqisinə dair yeniliklərdən xəbərdar olmağa, onların təcrübəsindən bəhrələnməyə üstünlük vermişdir. Maarifpərvər ziyalı Məmmədağa Şaxtaxtlının böyük əziyyətlər hesabına nəşr etdiriyi həftədə üç dəfə türk dilində çap edilən "Şərqi-Rus" Tiflisdəki Azərbaycan diasporunun böyük xidməti nəticəsində oxuculara təqdim olunmuşdur. 1903-cü ildən 1905-ci ilə qədər iki il müddətində işıq üzü görən qəzetin cəmi 377 nömrəsi çıxmışdı. 1905-ci ildə "Şərqi-Rus" qapandıqdan sonra, 1918-ci ildə Tiflisdə yeni bir mətbu orqan "Gələcək" ictimai-siyasi və ədəbi qəzet çap olunur. Bu qəzet Mərkəzi Müsəlman Təşkilatı olan "Hümmət" Menşevik Sosial-Demokrat Firqəsinin orqanı idi. Elə həmin il Tiflisdə yeni bir məcmuə də - "Gənclər yurdu" çap edilir. Qeyd edim ki, "Gənclik" qəzeti həftədə iki dəfə, "Gənclik yurdu" isə ilkin mərhələdə ayda iki dəfə, sonra isə həftədə bir dəfə buraxılmışdır.

Dünyanın bir çox ölkələrinə qapı açan azərbaycanlılar XX əsrin inkişaf etmiş dövlətlərindən olan Almaniyaya da üz tutur, oranın mədəniyyətini öyrənməyə çalışırdılar. Berlinə pənah gətirən və orada yaşayan görkəmli ictimai xadim, qələm sahibi olan Seyid Həsən Tağızadə həmin məkanda 1915-1921-ci illərdə "Gavə" adlı aylıq qəzet çıxararaq, oxuculara təqdim edir. Altı il müddətində çap olunan "Gavə" qapandıqdan sonra elə həmin il Berlində ziyalı Hüseyn Kazımzadə jurnal buraxdırır. Bundan sonra isə Berlində doktor Təqi Əfəndinin rəhbərliyi altında çıxan "Dünya" jurnalı Köln, Hamburq, Vann, Münhen kimi şəhərlərdə Azərbaycan diaspora mətbuatının əsasını qoymuşdur.

## AZƏRBAYCAN DİASPORA MƏTBUATININ NÜMUNƏLƏRİ SOVET DÖVRÜNDƏ

Azərbaycan diaspora mətbuatının dünya ölkələrinin bir qismində təməl daşının qoyulmasından və inkişaf mərhələlərindən söz açarkən, qeyd etməliyik ki, dünyanın bir çox ölkələrində yaşayan ziyalılarımız vətənpərvərlik prinsipindən çıxış edərək, müxtəlif ad altında mətbu orqanlarının işıq üzü görməsinə çalışmışlar. Azərbaycanlı tanınmış qələm və zəka sahibləri xalqın tarixinin, milli mədəniyyətinin, adət-ənənəsinin təbliği istiqamətində yorulmaq bilmədən çalışmışlar. Sovet imperiyasının ilk illərində Tiflisdə Azərbaycan diaspora mətbuatı işıq üzü görür. 1918-1920-ci illərdə nəşr olunan "Al bayraq" qəzeti müsəlman ictimaiyyətinin orqanı idi. Ə.Qarayevin, Ə.Sadıqovun, M.Məhərrəmovun redaktorluğu və təşkilatçılığı ilə çıxan qəzet həftədə iki dəfə nəşr olunurdu. Tiflisdə sovet dövrünün ilk on ili ərzində müxtəlif adda Azərbaycan ziyalılarının təşəbbüsü ilə qəzetlər nəşr olunurdu. Bu haqda əldə etdiyimiz mənbələrdən oxuyuruq: "1921-ci ildə Tiflisdə məşhur teatr rejissoru və aktyoru Mirseyfəddin Kirmanşahlının məsul müdirliyi ilə İran Kommunist Firqəsi Xarici İdarəsinin orqanı "Ədalət" qəzeti həftədə iki dəfə, cəmisi 13 sayda çap edilmişdi. 1922-1927-ci ildə isə Mavərayi-Qafqaz Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Şurasının "Yeni fikir" qəzeti nəşr olundu. 1927-ci ildən qəzet "Yeni kənd" adlandırıldı. Bundan sonra, Tiflisdə 1924-cü ildə Yeni Türk Əlifbası Komitəsinin ərəb və latın əlifbası ilə "İşıq yol" adlı qəzeti çıxmışdır. 20-ci illərin ikinci yarısında azəri türkcəsində "Qızıl şəfəq" aylıq məcmuəsi (1926-1928) də nəşr olunmuşdur".

Sovet dövründə Dağıstanın Mahaçqala və Buynaksk şəhərlərində də Azərbaycan dilində olan mətbu orqanlarının nəşrinə başlanılır. Belə ki, 1923-1929-cu illərdə çap edilən "Dağıstan firqəsi" və 1925-1929-cu illərdə çıxan "Maarif yolu" qəzetləri Azərbaycan diaspora mətbuatının nümunələridir. Türkiyədə yaşayan azərbaycanlıların da fəaliyyət dairəsi geniş idi. Belə ki, 1952-ci ildə Ankarada buraxılan "Azərbaycan" jurnalı Türkiyədəki Azərbaycan diasporu mətbuatının nümunələrindən idi. Tanınmış ziyalıların rəhbərliyi ilə çıxan qəzet Azərbaycan ədəbiyyat və incəsənətini, azadlıq mübarizəsini əks etdirərək, xalqın milli mənafeyinin müdafiəçisi kimi çıxış edirdi.

Almaniyanın bir çox şəhərlərində Azərbaycan diaspora mətbuatının təməl daşı qoyulduqdan sonra, bu dövlətdə milli mətbuatımızı təmsil edən qəzet və jurnalların sayı artmaqda davam edirdi. Almaniyanın Berlin şəhərində azərbaycanlılar "Milli yol" qəzetinin nəşrinə nail olurlar. Ədəbi, siyasi, elmi, iqtisadi və milli məcmuə olan "Milli yol" ayda iki dəfə nəşr olunurdu. Çox keçmir ki, elə həmin şəhərdə işıq üzü görən "İstiqlal" qəzeti (1932-1934) və "Qurtuluş" (1934-1938) jurnalı çap etdirilir.

## VİRTUAL MƏKAN AZƏRBAYCAN MARAQLARINA XİDMƏT EDİR

Müasir dünyamızda dünyaya səpələnmiş soydaşlarımızın azərbaycançılıq ideyası naminə birləşib və diaspor üzvlərinin qarşısında yeni vəzifələr qoyulub. İyirminci yüzillik informasiya əsri olduğu zamanda informasiya müharibəsinin, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi də əsas mövzu olaraq diqqətdə saxlanılır. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində təbliğat mexanizminin gücləndirilməsi üçün lazım olan müasir metodların və informasiya texnologiyalarının tətbiqi zəruriliyə çevrilib. Müasir dünyanın reallıqların nəzərə alaraq, bu istiqamətdə işimiz daha da təkmilləşdirilməli və ilk növbədə, media ilə iş aparılmalıdır. Cənab İlham Əliyev çıxışlarının birində, bu baxımdan, dünya ölkələrində azərbaycanlı jurnalistlər təbəqəsinin yetişməsini və müxtəlif media orqanlarında təmsil olunaraq, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırılmasının zəruriliyini qeyd edib. İyirminci yüzillik informasiya əsri olduğundan, informasiya müharibələrinin əsas qüvvəyə çevrilməsi danılmazdır: "İndi dünyanın müxtəlif yerlərində qanlı toqquşmalar baş verir. Biz burada - Bakıda, yaxud da başqa bir şəhərdə oturub, haradan necə bilərik ki, orada nələr baş verir, kim haqlıdır, kim haqsızdır, kim hücum edir, kim özünü müdafiə edir? Biz onu ancaq media vasitəsilə öyrənə bilərik. Əgər hər hansı bir ölkəyə qarşı əlaqələndirilmiş çirkin kampaniya aparılarsa, istər-istəməz ictimai fikir də o istiqamətdə gedəcək".

Azərbaycan Prezidenti İlham Əliyev müxtəlif ölkələrdə, həmişə olduğu kimi, bu gün də ermənilər tərəfindən Azərbaycana qarşı çirkin kampaniyanın aparırıldığını qeyd edib və bu gün qarşıda duran əsas məsələlərdən biri olaraq, Azərbaycan diasporunun onlara tutarlı cavab verməsi üçün bu istiqamətdə fəaliyyətinin daha da artırmasını vurğulayıb. Müasir dövrün reallıqları baxımından, diaspor təşkilatları yaşadıqları ölkələrdə internet saytlarını açmaları təklifi irəli sürülüb: "O, internet saytları yaşadıqları ölkələrin ictimaiyyəti üçün maraqlı olmalıdır, eyni zamanda, Azərbaycan həqiqətləri orada göstərilməlidir. Bu proses daim aparılmalıdır. Azərbaycan dilində və xarici dillərdə qəzetlər dərc edilməlidir ki, azərbaycanlılar, onların övladları oxusunlar, ana dilini bilsinlər, həm də o ölkələrin ictimaiyyəti oxusun".

Dünya miqyasında çox etibarlı tərəfdaş kimi tanınan Azərbaycan bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq şəraitində yaşadığı halda, Azərbaycan Prezident Cənab İlham Əliyevin vurğuladığı kimi, bizim Ermənistandan başqa, heç bir problemimiz yoxdur. Erməni təxribatının qarşısının alınmasında, yalanlarının ayaq tutub yerimərinə yol verməmək üçün, əlbəttə ki, media öz sözünü deməlidir. Təbii ki, virtual məkan Azərbaycan maraqlarına xidmət edir, Azərbaycan həqiqətlərinin təbliğinə yönəlir. Azərbaycançılıq ideyası naminə birləşərək, qarşıya qoyulan vəzifələr Azərbaycan həqiqətlərinin dünyada yayılmasında əhəmiyyətli rol oynayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Altı ayda əhalinin nominal gəlirləri 7,3 faiz artıb

Bu ilin birinci yarısında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrünə nisbətən 7,3 faiz artaraq 23526,7 milyon manata çatıb. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, əhalinin hər nəfərinə düşən gəlirlər orta hesabla 2422,9 manat təşkil edib. Bu dövr ərzində gəlirlərin 86,3 faizi son istehlak xərclərinə, 8,5 faizi vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının, 1,9 faizi kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilib, 3,3 faizi isə yığıma yönəldilib. Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 21526,8 milyon manatlıq vəsait qalıb.

## Ümumi balı 150-dən az olmayan abituriyentlər müsabiqəyə buraxılacaqlar

Dövlət İmtahan Mərkəzi (DİM) ali təhsil müəssisələrinə qəbul olmaq üçün ixtisaslar üzrə müsabiqə şərtlərini Təhsil Nazirliyi ilə razılaşdırmaqla müəyyən edir. Bu barədə AZƏRTAC-a DİM-dən məlumat verilib. Qeyd olunub ki, müsabiqə şərtləri ilə əlaqədar Təhsil Nazirliyinin 2017-ci il 13 iyul tarixli məktubuna əsasən 2017/2018-ci tədris ili üçün bəzi ali təhsil müəssisələrində müəyyən ixtisaslar üzrə ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən az olmayan (fənlər üzrə nisbi bal məhdudiyyəti tətbiq olunmur) abituriyentlərin buraxılması nəzərdə tutulub.

Abituriyentlər aşağıdakı cədvəllərdə həmin ixtisaslar, onların tədris olunacağı ali təhsil müəssisələri, eləcə də hər bir ixtisas qrupu üzrə ümumi müsabiqə şərtləri ilə tanış ola bilərlər. İxtisas seçimi iyulun 29-dan avqustun 10-dək həyata keçiriləcək və yaxın günlərdə nəşr olunacaq "Abituriyent" jurnalının 4-cü sayında ixtisas seçimi haqqında elan, müsabiqə şərtləri, qəbul aparılan ixtisaslar və s. haqqında ətraflı məlumat veriləcək.

# Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısı artır

*"Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" ölkədə dil siyasətinin uğurla həyata keçirilməsinə əsas verir*

***Hər bir xalqın ana dili onun milli varlığını, tarixi kökünü və kimliyini müəyyənləşdirir. Dilin yad ünsürlərdən qorunması, inkişaf etdirilməsi, problemlərinin həll olunması əsas məsələlərdən biri kimi diqqətdə saxlanılır. Azərbaycan xalqı tarix boyu müxtəlif təcavüzlərə məruz qalsa da, ana dilimiz özünəməxsusluğunu qoruyub saxlayıb, zaman-zaman inkişaf edərək bölgədə aparıcı dillərdən birinə çevrilib.***



Təbii ki, müasir dövrümüzdə sivil dünyada yaşadığımızdan, dünyaya inteqrasiya olunduğumuz zamanda dilin qorunmasına ehtiyac daha da artır. Xarici ölkələrlə mədəni və iqtisadi əlaqələr genişləndikcə, informasiya texnologiyalarının sürətlə inkişafı dildə yeni sözlərin əmələ gəlməsinə şərait yaradır. Odur ki, ana dilinin saflığının qorunması ciddi məsələ kimi diqqətdə saxlanılır. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dilinə uzun illər böyük diqqət və qayğı ilə yanaşdığını, xüsusilə, vurğulamaq lazımdır. Respublikada dil siyasətinin, birmənalı şəkildə formalaşdırılması, ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi olaraq beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti, eləcə də, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli məlum fərmanlar Azərbaycan dilinin dövlət dili kimi qorunması və inkişafına böyük təkan oldu. Ulu Öndərin dil siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamları əsasında latın qrafikalı yeni Azərbaycan əlifbası ilə dərsliklər, elmi əsərlər, lüğətlər və bədii ədəbiyyat nümunələri çap olunaraq istifadəyə verildi. Daha sonra Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" Sərəncamı ölkədə dil siyasətinin uğurla həyata keçirilməsini təsdiq edən sənəddir.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan daha bir Sərəncam da ölkəmizdə dil siyasətinin uğurla həyata keçirildiyini bir daha göstərir. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılmasını, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsini, ölkədə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılmasını təmin etməkdə əhəmiyyətli sənədə çevrilib. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun inkişafı, qorunması, elektron məkanda daha geniş istifadəsi və ölkədə dilçiliyin inkişaf etdirilməsi mexanizminin yaradılması əsas vəzifə olaraq qarşıya qoyulub.

Dilçilik sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasının təkmilləşdirilməsi, dünya dilçilik elminin müasir inkişaf meyillərini nəzərə almaqla, elmi-tədqiqatların prioritet istiqamətlərinin müəyyənləşdirilməsi kimi məsələlər Azərbaycan dilinin qorunmasında önəmlidir. Dünyaya inteqrasiya olunduğumuz bir zamanda dünyanın aparıcı elmi mərkəzləri ilə əməkdaşlıq dövrün tələbinə çevrilib. Bu baxımdan, dünyanın aparıcı mərkəzləri ilə beynəlxalq elmi əməkdaşlığın inkişaf etdirilməsi, dilçiliyin aktuallıq kəsb edən müxtəlif problemlərinə dair birgə tədbirlərin həyata keçirilməsi maraq kəsb edir.

Sərəncamdan irəli gələn vəzifələri həyata keçirmək məqsədilə, artıq bir sıra əməli işlər görülüb. Onlar sırasında, ilk növbədə, Dilçilik İnstitutunda dörd yeni şöbənin yaradılmasını qeyd etmək lazımdır. Bunlar Sosiolinqvistika və Dil Siyasəti, Qədim Dillər və Mədəniyyətlər, Kompüter Dilçiliyi, Monitorinq. Bütün bunlar Azərbaycan dilçiliyinin Avropa və dünya elminə inteqrasiyasına, ölkənin görkəmli dilçi alimlərinin beynəlxalq səviyyədə tanınmasına və nüfuz qazanmasına, eləcə də, dünya dilçiliyində aparıcı yer tutan yeni sahələrin, qədim dillər və mədəniyyətlərin araşdırılmasına, ölkə ərazisində yaşayan azsaylı xalqların dillərinin öyrənilməsinə yol açır. Beynəlxalq standartlar əsasında milli terminoloji-informasiya sisteminin və Azərbaycan dilinin dövlət dili kimi ümumi informasiya bazasının yaradılması, həmçinin, Azərbaycan dilinin yeni orfoqrafik, izahlı, frazeoloji və terminoloji lüğətlərinin hazırlanması, müxtəlif dialekt və şivələrin müasir tələblər səviyyəsində öyrənilməsi sahələrində də müəyyən işlərə artıq başlanılmışdır. Bundan əlavə, dilimizə son 20-30 ildə daxil olmuş yeni sözlərin, o cümlədən, terminlərin lüğəti çapdan çıxmıhdı.

Dilin inkişafını və ədəbi dil normalarının qorunmasını təmin edən qanunvericilik bazasının təkmilləşdirilməsi, dil və nitq mədəniyyətinin yüksəldilməsi, Azərbaycan dilinin lüğət tərkibinin və qrammatik normalarının sistemləşdirilməsi kimi məsələlər Dövlət Proqramından irəli gələn zəruri vəzifə kimi qarşıya qoyulur.

Dünya dilçilik elminin müasir inkişaf meyilləri nəzərə alınaraq, Azərbaycan Milli Elmlər Akademiyası və respublikanın digər elmi müəssisələrində, ali məktəblərində aparılan fundamental və tətbiqi tədqiqatların prioritet istiqamətlərinin müəyyənləşdirilməsi Dövlət Proqramında öz əksini tapıb. Bu baxımdan, Azərbaycan dilinin və dilçilik elminin inkişafı ilə bağlı qısamüddətli və uzunmüddətli kompleks elmi proqramlar işlənilib-həyata keçirilir.

Azərbaycan dilinin dövlət dili kimi inkişafı, tədrisi, lüğət ehtiyatının zənginləşdirilməsi, qrammatik quruluşunun qorunması, söz yaradıcılığı prosesinə nəzarətin gücləndirilməsi və nitq mədəniyyəti sahəsində kompleks tədbirlərin həyata keçirilməsi də diqqətdən kənarda qalmamışdır. Mətbuat orqanlarında, televiziya və radio kanallarında, internet resurslarında və sosial şəbəkələrdə ədəbi dil normalarının pozulması hallarının qarşısını almaq üçün mexanizmlər var. Dövlət Proqramı Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi və inkişafında, yüksəkixtisaslı kadrların hazırlanmasında əhəmiyyətli bir sənəddir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Casusluq yolu ilə toplanılmış məlumatları Azərbaycandan çıxarmağa çalışan şəxslər saxlanılıb



Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həyata keçirilmiş əks-kəşfiyyat tədbirləri nəticəsində xarici xüsusi xidmət orqanlarının tapşırığı üzrə Azərbaycan Respublikası ərazisində casusluq yolu ilə toplanılmış məlumatları kiçik ölçülü elektron informasiya daşıyıcılarında Azərbaycan Respublikasından çıxarmağa çalışan Muxtar Yağubov ölkəni tərk etməyə cəhd edərkən saxlanılıb.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, dövlətə xəyanət faktı üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü maddəsi ilə başlanılmış cinayət işi üzrə davam edən araşdırmalarla casus şəbəkəsinin Bakıda və ölkənin digər ərazilərində fəaliyyət göstərən üzvləri - Azərbaycan Respublikasının vətəndaşları Yağubov Muxtar Camal oğlu, Əhmədov Şakir Xanlar oğlu, Zeynallı Zəka Abış oğlu, Abbaszadə Səbuhi Oktay oğlu, Nuriyev Xudaşükür Məcid oğlu və Hüseynov Kəmaləddin İsaxan oğlu ifşa olunaraq cinayət məsuliyyətinə cəlb edilib, barələrində müvafiq məhkəmə qərarları ilə həbs qətimkan tədbiri seçilib.

İstintaq-əməliyyat tədbirləri nəticəsində xarici xüsusi xidmət orqanları ilə qarşılıqlı yazışmalar və ötürülməsi nəzərdə tutulan müxtəlif xarakterli məlumatlar aşkarlanaraq ələ keçirilib, casus şəbəkəsinin xarici xüsusi xidmət orqanlarının tapşırığı üzrə dövlət məmurları, ictimai xadimlər və digər dairələrə nüfuz etmək, Azərbaycan Respublikasının təhlükəsizlik orqanları, Silahlı Qüvvələri, ölkədə aparılan təhlükəsizlik tədbirləri barədə məxfi məlumatları toplamaq istiqamətində fəaliyyət göstərdiyi müəyyən edilib. Hazırda istintaq-əməliyyat tədbirləri davam edir.

# Mətbuat Şurası və "Veysəloğlu" şirkətlər qrupunun birgə yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb



Dünən Azərbaycan Mətbuat Şurası və "Veysəloğlu" Şirkətlər Qrupunun birgə təşkilatçılığı ilə "İqtisadi islahatlar və qeyri-neft sektorunun inkişafında yeni hədəflər" mövzusunda KİV təmsilçiləri üçün yazı müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Tədbirdə hər iki qurumun rəhbərləri, müsabiqə qalibləri, münsiflər heyətinin üzvləri, media nümayəndələri iştirak ediblər. SİA-nın məlumatına görə, mükafatlandırma mərasimini giriş sözü ilə açan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, müsabiqənin məqsədi jurnalistlərin iqtisadi maarifləndirilməsi, onların qeyri-neft sektorunun inkişafında sahibkarlığın rolu, eləcə də ölkənin qida təhlükəsizliyində sahibkarlığın missiyası ilə bağlı məsələləri işıqlandırmalarını stimullaşdırmaqdır. Şura sədri həmçinin belə müsabiqələrin jurnalistlərin müxtəlif sahələr üzrə ixtisaslaşmalarına dəstək baxımından vacibliyini önə çəkib və bu istiqamətdə "Veysəloğlu" şirkətlər qrupunun gördüyü işlərin olduqca yüksək qiymətləndirildiyini qeyd etib.

"Veysəloğlu" Şirkətlər Qrupunun Biznesin İnkişafına Dəstək üzrə baş direktoru İlqar Nuri çıxış çıxışında ilk olaraq media nümayəndələrini salamlayaraq onları peşə bayramları münasibəti ilə təbrik edib, şirkətin təşkilatçılığı ilə keçirilən müsabiqənin iştirakçılarına təşəkkürünü bildirib. Toplantıda çıxış edənlərdən MŞ sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, Trend Beynəlxalq İnformasiya Agentliyinin baş direktorunun müavini Arzu Nağıyev, iqtisadçı-ekspertlər Vüqar Bayramlı və Əli Əhmədov müsabiqənin əhəmiyyətli cəhətlərindən söz açaraq bildiriblər ki, belə təşəbbüslərdə peşəkar jurnalistlərin irəli sürdükləri fikirlər dövlətin mövcud sahədəki siyasətinin daha da optimallaşdırılmasına dəstəkdir. "Veysəloğlu" Şirkətlər Qrupunun İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlham Məmmədov qalibləri təbrik edərək, gələcəkdə bu kimi yazı müsabiqələrinin mütəmadi olaraq keçiriləcəyini vurğulayıb və media nümayəndələrini daha aktiv iştirak etməyə dəvət edib. Sonra müsabiqədə qalib gələn və fərqlənən media nümayəndələrinə mükafatlar təqdim olunub. Qeyd edək ki, müsabiqəyə 2017-ci ilin iyunun 1-dən iyulun 1-dək müddətdə qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında gedən yazılar qəbul edilib. Münsiflər heyəti ümumilikdə 38 KİV-də yayımlanmış eyni sayda yazını nəzərdən keçirib. Bu KİV-lərdən 18-i qəzet, 11-i internet xəbər saytı, 8-i informasiya agentliyi, 1-i jurnaldır. Təqdim edilmiş materiallardan biri I yerə (1000 manat), ikisi II yerə (500 manat), üçü III yerə (300 manat), daha 19 yazı müəllifi isə həvəsləndirici mükafata (100 manat) layiq görülüb.

# Ermənilər ümidlərini Rusiyadan Qərbə doğru yönəldirlər

## *Yaxud işğalçılar böyük dağıntılar altında qalacaqlarını etiraf etmək məcburiyyətindədirlər*

***Ermənistan ictimaiyyəti bu dəfə ümidlərini, baş tutması gözlənilən, Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın dövlət başçısı Serj Sarkisyanla görüşünə bağlayıblar. Bu barədə 1in.am saytının analitiki Aram Amatuni məqaləsində qeyd edib. Yazıda digər məqamlara da toxunulub və mahiyyətdə Ermənistanın Rusiyadan imtina etməsi, əsas olaraq götürülüb. “Rusiyanın “İzvestiya” qəzeti Rusiya Federasiyasının xarici işlər nazirliyinin adı açıqlanmayan mənbəsinə istinadən yazır ki, ehtimal edilən Sarkisyan-İlham Əliyev görüşü Moskvanın təşəbbüsü ilə təşkil olunacaq, Dumanın MDB və Avrasiyaya inteqrasiya işləri üzrə rəhbəri Leonid Kalaşnikov isə, bəyan edib ki, regiondan 10 min km uzaqda yerləşən ölkələrlə fikir mübadiləsi aparmaq üçün ayrı-ayrı formatlar və meydanlar istiqamətində hərəkət etməyə əsas yoxdur, əsasən, qonşularla - Moskvayla danışıqlara getmək lazımdır”-deyə yazılan məqalədə bildirilir.***



### “Ermənistan nə vaxt ki, o Moskvanın təsiri altına düşürsə, onun üçün təhlükəli məqamlar baş qaldırır”

A.Amatuni prezidentlərin payız aylarında görüşmələrinin mümkünlüyü haqqında Serj Sarkisyanın telemüsahibəsində də fikir bildirdiyini xatırladaraq, qeyd edib ki, Sarkisyan həmin fikirləri əsnasında görüşün nəticələrindən konkret nə isə gözləmədiyini də bildirib. SİTAT: “Problem, əlbəttə ki, gözləntilərdə deyil, problem ondadır ki, Qarabağ prosesi bundan sonra hansı məcrada cərəyan edəcək və burada, birmənalı olaraq, bir fakt mövcuddur - Ermənistan nə vaxt ki, o Moskvanın təsiri altına düşürsə, onun üçün təhlükəli məqamlar baş qaldırır”.

Bu baxımdan, erməni analitikinin yazısına diqqət yetirərkən, növbəti dəfə şahidi oluruq ki, Ermənistanda kükrəyən anti-Rusiya dalğası artıq pik həddə qədər yüksəlib. Ən azından, prezident Serj Sarkisyanın Qərbə inteqrasiya haqqında verdiyi son qərarları və ara-sıra, ehtiyatlı tərzdə Rusiyaya Azərbaycana silah satdığına görə incikliyini bildirməsi, o cümlədən, erməni ictimai-siyasi dairələrinin də Rusiya əleyhinə çıxışlarını intensivləşdirmələri, belə qənaətə gəlməyə zəmin yaradır ki, məhz bu vəziyyət də onlara çıxış yolu açmır. Çünki bu gün, demək olar ki, bütün ölkə Rusiyanın idarəçiliyi altında sıxılıb-qalıb və Rusiya bir amana bənddir ki, bir zərbəsi ilə Ermənistanı həm iqtisadi, həm siyasi, həm də hərbi cəhətdən məhv etsin.

Ona görə də, olan-qalan son ümidlərini, məhz Qərb siyasi dairələrində axtarmağa başlayan Ermənistanın ictimai-siyasi rəyinin mövqeyi analitik yazar Aram Amatuninin məqaləsində də əks olunur. SİTAT: “Maraqlıdır, gözlənilən Sarkisyan-İlham Əliyev görüşü ərəfəsində ATƏT-in Minsk Qrupunun digər iki həmsədr ölkələri ABŞ və Fransa hansı mövqeyi sərgiləyəcəklər. Bu günlərdə Fransanın Azərbaycandakı səfiri bəyan edib ki, Paris Sarkisyan-Əliyev görüşünü təşkil etmək üçün hər zaman hazırdır. Minsk Qrupunun amerikalı həmsədri Riçard Hoqland da “Amerikanın Səsi”nə bir neçə ay öncə verdiyi müsahibəsində bildirmişdi ki, Ağ Evin yeni administrasiyasının xarici siyasəti dəqiqləşdirildikdən sonra ABŞ-ın Qarabağ məsələsindəki daha fəal siyasətini gözləməyə dəyər”.

Beləliklə, erməni analitik yazarı nədənsə, məhz bu iki qərbli siyasətçilərin bəyanatlarına əsaslanaraq, Rusiya faktorundan imtina amilini ortaya atır, hətta Qərb diplomatiyasına qahmar çıxaraq bu dəfə onların erməniləri güclü Azərbaycandan xilas edəcəyini düşünür.



### “Rusiya özü təklikdə regionu idarə etmək gücündə deyil və sözsüz ki, bu idarəçiliyi Türkiyənin yardımı ilə edəcək”

SİTAT: “ABŞ və Fransanın Qarabağ probleminin həllini Rusiyaya vermələrini sadəlövhlük hesab etmək olardı. Bu, praktiki olaraq, belə bir məna kəsb edərdi ki, onlar bütün Qafqazı (region maraqlarını-R.N.) Rusiyaya təhvil verirlər. Belə ki, burada vəziyyət çoxqatlıdır və Qafqazın Rusiyaya verilməsi amili, praktiki olaraq, bu regionun xaosla baş-başa buraxılması mənasını kəsb edər. Rusiya özü təklikdə regionu idarə etmək gücündə deyil və sözsüz ki, bu idarəçiliyi Türkiyənin yardımı ilə edəcək. Halbuki ABŞ və Fransa tarixi Rusiya və Türkiyə tandemini xatırlayaraq, bundan ibrət götürmüşdülər”.

Yəni görünən budur ki, erməni analitiki Amatuni bu və ya digər mənada, yalnız Rusiya deyil, o cümlədən, Türkiyə faktorunu özünə təhlükə hesab edir. Belə ki, son vaxtlar Rusiya ilə Türkiyə arasında məlum soyuqluqlar aradan qalxandan sonra istiləşən münasibətlərin daha əvvəlki normal münasibətləri üstələməsi, o cümlədən, bu günlərdə Türkiyənin Rusiyadan S-400 uzaq mənzilli raketlər alacağı ilə bağlı yayılan informasiya, həqiqətən də, erməni tərəfini dalana sıxışdırıb.

### Qərb heç də ermənilərə qara qaş və qara gözlərinə görə qucaq açmayacaq

Başqa tərəfdən, Türkiyənin, bütün mənalarda, Azərbaycanın yanında olması həqiqəti də Ermənistanın Qərbə doğru meyillənməsi marağını artırır. Fəqət, Qərb heç də ermənilərə qara qaş və qara gözlərinə görə qucaq açmayacaq. Ancaq erməni siyasi icmalçı özünü inandırmağa çalışır ki, Vaşinqton və Paris yenidən tarixin təkrarlanmasına imkan verməyəcəklər.

Amatuni, əks halda Ermənistanın siyasi məhvə sürüklənəcəyini etiraf edib. O, Qafqaz regionunun Rusiyanın və Türkiyənin maraqları kontekstində qalacağı təqdirdə, Rusiyanın Azərbaycanın mümkün hücumlarının qarşısını ala bilməyəcəyini bildirir.

“...Və əgər Paris və Vaşinqton Rusiyanın proseslərdə uduzmağını gözləyəcəklərsə, onda Ermənistan və Qarabağ, sadəcə, dağıntılar altında qala bilər. Mövcud vəziyyətdə problem, həm də ondadır ki, Ermənistan və Qarabağ (burada qondarma “DQR” separatçıları nəzərdə tutulub-R.N.) böyük dağıntıların altında qalmamaları üçün heç nə etmir. Onlar (Ermənistan rəhbərliyi və separatçılar-R.N.) Paris və Vaşinqtonun Ermənistanın və Qarabağın dağıntılar altında qalmamasına biganəlik göstərməmələri üçün hansı addımları atırlar? Bu mənada, Ermənistanın fəaliyyəti qeyri-adekvat olaraq qalmaqdadır və Yerevan gözləmə mövqeyində dayanmaqda davam edir. Hansı ki, siyasi təşəbbüs göstərərək, Paris və Vaşinqtonla praqmatik əməkdaşlıqlar qurmaq olardı...”

### Məhz bundan sonra Ermənistanın xəritədə qalıb-qalmaması müzakirə mövzusuna çevrilə bilər

Nəticə etibarilə, belə qənaətə gəlmək olar ki, məhz erməni siyasi-ictimai rəyinin baxışlarını analitik yazısına köçürən erməni müəllif artıq hər şeyin başa çatdığına, Ermənistanın dalanda sıxılıb-qalmasına işarə edir. Hər halda, Qərb bundan sonra Ermənistana qucaq açsa belə, bu ölkənin Rusiya asılılığından çıxması, ayağa qalxması ciddi görünmür. Bu ölkənin yaşaya bilmək yolu yalnız işğal etdiyi Azərbaycan torpaqlarından, birmənalı olaraq, əl çəkməsindədir. Məhz bundan sonra Ermənistanın xəritədə qalıb-qalmaması müzakirə mövzusuna çevrilə bilər.

***Rövşən NURƏDDİNOĞLU***

# Bu gün 42 dərəcə isti olacaq




İyulun 20-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu, yağmursuz keçəcək. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. ETSN-dən SİA-ya verilən məlumata görə, havanın temperaturunun gecə 22-25° isti, gündüz 34-39° isti, Bakıda gecə 23-25° isti, gündüz 37-39° isti olacağı gözlənilir. Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu, nisbi rütubət 45-55% olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 26-27°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 27-28°, Türkan, Hövsan, Sahil, Şıxda 28-29° isti təşkil edəcək. Azərbaycanın rayonlarında hava yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25° isti, gündüz 35-40°, bəzi yerlərdə 42° isti, dağlarda gecə 15-20° isti, gündüz 28-33° isti olacağı gözlənilir.

TƏRS BAXIŞ

# ADP sədri Sərdar Cəlaloğlu bu dəfə də aranı qatdı

## “AXC-nin başında duran, onu yaradanlardan biriyəm”

***Hər il olduğu kimi, bu il də xalq hərəkatı zamanı yaradılmış Azərbaycan Xalq Cəbhəsinin təmsilçiləri arasında kəskin qarşıdurmalara start verilib. Bu dəfə aranı Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu qatıb. O, iddia edib ki, Xalq Cəbhəsinin əsas yaradıcılarındandır.***

### ADP sədri: “Kim necə başa düşür, özü bilər”

“Biz şineldən çıxmamışıq. Mən Azərbaycan Xalq Cəbhəsi Hərəkatının başında duran, onu yaradan şəxslərdən biriyəm”-deyə iddia edən Cəlaloğluya görə, Azərbaycan Xalq Cəbhəsi adında təşkilatı ilk dəfə, məhz özünün yaratdığını bildirib: “Bu adda təşkilat əvvəlcə Naxçıvanda yaranıb. Bu mənada, mən bu qurumun şinelindən çıxan deyil, bu qurumun başında duran, onu yaradanlardan biriyəm. Mən belə düşünürəm: kim necə başa düşür, özü bilər”.

Beləliklə, o digər müxalifət partiyalarına ismarıc yollayaraq, ADP-nin AXC-nin şinelindən çıxmadığını, əksinə, AXC-ni yaratdığını bildirib.



### “Mənimlə mübahisə etmək istəyən gəlsin qərargaha”

Bu kimi iddiaları sosial şəbəkələrdə kəskin etirazlar yaradıb. AXCP və Müsavat, o cümlədən, digər partiyaların üzvləri Cəlaloğlunu xalq cəbhəsi adını özünküləşdirdiyini bildiriblər. Xüsusilə, AXCP və Müsavat partiyalarının sosial şəbəkədə fəaliyyət göstərən qrupları ADP sədrinə həqarətlər və təhqirlər ünvanlayıblar. AMİP, KXCP, “Azadlıq” və s. kimi partiyalar da Cəlaloğluya qarşı etiraz ediblər. Bir sıra partiya rəhbərlikləri isə S.Cəlaloğlunu, irəli sürdüyü iddiasını sübut etməkdən ötrü, açıq debata çağırıblar. ADP sədri isə heç bir debata getməyəcəyini, öz iddiasında qalacağını deyərək, maraqlananların ADP qərargahına gələrək, orada müzakirə aparmağının mümkün olduğunu bildirib. “Mənimlə mübahisə etmək istəyən gəlsin qərargaha”-deyə demokratların sədri mesaj verib.

### Seçki ilinə hesablanmış addım?

Yeri gəlmişkən, hər il bu vaxt sözügedən müzakirələrdə irəli sürülən bənzər iddialar səbəbindən düşərgə daxilindəki gərginliklər daha da artır. Söz yox ki, ADP sədrinin həmin iddiasını qətiyyətlə səsləndirməsi, çox yəqin ki, seçkilər ili öncəsi dividend qazanmağa və diqqət mərkəzinə çevrilməyə hesablanmış addımdır. Lakin görünür, onun ortaya atdığı müzakirə başqa partiyaların da özlərini göstərmələri üçün bir növ şans yaradıb.

Bu arada, onu da xatırlatmaq yerinə düşərdi ki, ümumiyyətlə, ADP sədri zaman-zaman istər ictimai rəyi, istərsə də təmsil olunduğu düşərgədəki həmfikirlərinin qıcıqlanmalarına səbəb olan bir çox iddialarla çıxış edib. Bu dəfə isə, onun AXC-nin yaradıcısı adına iddialı olması, demək olar ki, daha öncəki iddialarını kölgədə qoyub. Hər halda, bizlər bu günlərdə müxalifətdə daha kəskin qarşıdurmaların şahidlərinə çevriləcəyik.

**R.RƏSULOV**

# Ailəsi radikal-ekstremist müxalifətçini rədd etdi

***Bu günlərdə bəlli olub ki, uzun müddət müxalifətin dağıdıcı qanadında siyasi ekstremizmlə məşğul olan, daim ictmai rəyi hakimiyyətlə qarşıdurmaya çağıran Vidadi İsgəndərlinin ailəsi ondan imtina edib. Qeyd edək ki, özünü müxalifətin öndə gedən söz deyəni kimi qələmə verən, gah da “hüquq müdafiəçisi” qismində çıxış edən, eyni zamanda, “Milli Şura”nın üzvü olan V.İsgəndərli hazırda Gürcüstanda qeyri-leqal şəkildə yaşayır. Onun ailə üzvləri ölkə rəhbərliyinə məktubla müraciət ediblər. Müraciətində V.İsgəndərlinin anası Həbibə İsgəndərova və onun qardaşı İsfəndiyar İsgəndərov V.İsgəndərlinin fəaliyyəti ilə bağlı hiddətlərini dövlət başçısının diqqətinə çatdırıblar.***

### Utanc damğası!

“Ailənin üzvü bilərəkdən Azərbaycan barədə şər-böhtan xarakterli məlumatlar və bəyanatlar yayır və bu səbəbdən, onlar Vidadini artıq ailə üzvü kimi qəbul etmirlər, belə ki, o, İsgəndərli nəslinin adını ləkələyib”-deyə sözügedən məktubda bildirilir.

Beləliklə, V.İsgəndərli ailəsinin Azərbaycanın dövlət rəhbərliyinə müraciətində dağıdıcılıq prinsiplərinə söykənən müxalifətçi ekstremistin anası və qardaşı hakimiyyətdən “bu utanc damğasından qurtulmaqda yardım” istəyirlər.

Yeri gəlmişkən, onu da xatırlatmaq yerinə düşərdi ki, mövcud hal birinci dəfə baş vermir. Belə ki, bu günə qədər bir çox dağıdıcı müxalifət üzvlərinin ailələri bənzər addımlar ataraq, ailələrindən satqın və xəyanətkarların çıxmalarından böyük utanc hissi keçirdiklərini bildiriblər. Məsələn, AXCP sədri Əli Kərimlidən, demək olar ki, bütün nəsli imtina edib. O cümlədən, digər AXCP üzvü, Ə.Kərmlinin müavini və fəaliyyətinə xitam verilmiş “Azadlıq” qəzetinin baş redaktoru, eləcə də, xaricdə Azərbaycan maraqlarına qarşı fəaliyyət göstərən “Turan TV”yə rəhbərlik edən Qənimət Zahidin də ailəsi, bir müddət bundan qabaq, ondan imtina etdiklərini bildirmişdilər. Əlbəttə, bütün bunlar bir daha əsl reallığı ortaya çıxarır. Əsl reallıq isə budur ki, siyasi çirkablıqda xəyanət və satqınçılıqla məşğul olanların nəinki ölkədə, eyni zamanda, ailəsində belə yeri yoxdur. Çünki beləlери həm də siyasi fahişədirlər, özlərini və ailələrinin maraqlarını pula-paraya satmaqla məşğuldurlar...

**RÖVŞƏN**

# Əli Kərimli cəbhəçi gəncləri satışa çıxarır

***Bu gün müxalifət düşərgəsində baş verən başıpozuqluq, xaos və anarxiya fonunda diqqətçəkən əsas mövzulardan biri də diribaş partiya sədrlərinin ortaya “siyasi məhbus” siyahısı ataraq, ondan gəlir əldə etməyə girişmələridir. Bu, növbəti uğursuz planlardan olsa da, görünən odur ki, Əli Kərimli, Xədicə İsmayıl, Arif Hacılı və İsa Qəmbər bu biznesdən imtina etmək fikrində deyillər.***

Əksinə, bu sahəni daha da inkişaf etdirməyə cəhdlər göstərirlər. Amma məsələ burasındadır ki, işbazların tərtib etdikləri “siyasi məhbus” siyahıları bir-birindən fərqlənir. Belə ki, A.Hacılı - X.İsmayıl birliyinin yaydığı siyahı 166 nəfərdən ibarətdirsə, Ə.Kərimli-C.Həsənli qruplaşmasının hazırlayıb mətbuata təqdim etdiyi siyahı 96 nəfərdən ibarətdir. Bu baxımdan, siyahı düşərgədə rəqiblər üçün əsl baş ağrısına və yeni qarşıdurmalara səbəb olub. Tərəflər bir-birinin siyahılarını rədd edirlər. Maraqlıdır ki, Ə.Kərimli onların təqdim etdikləri siyahının daha inadırıcı olduğunu bildirir və qarşı tərəfin açıqladığı “siyasi məhbus” siyahısının natamam olduğunu qeyd edir.

### Xədicə İsmayıl: “Fuad Qəhrəmanlı cinayət törətdiyini etiraf edib və ölkə rəhbərliyindən onun bağışlanmasını xahiş edib”



X.İsmayıl da eynilə Ə.Kərimlinin hayküyünün əsassız olduğunu bildirir: “Ə.Kərimlinin siyahısı qondarmadır. Çünki orada yer alan insanlardan əksəriyyəti AXCP-nin rəhbəri sıralarına daxil olan şəxslərin qohumları və ya yaxın dostlarıdır. Hansı ki, onlar konkret cinayət əməllərinə görə həbs olunanlardır”. X.İsmayıl AXCP sədrinin müavini Fuad Qəhrəmanlının adı hallanan həmin “siyahı”ya daxil edilməsini də qəbul etmir. Bildirir ki, F.Qəhrəmanlı cinayət törətdiyini etiraf edib və ölkə rəhbərliyindən onun bağışlanmasını xahiş edib.

BAXCP-nin sədr müavini Niyaməddin Orduxanlının sözlərinə görə, Ə.Kərimli diqqət mərkəzinə çevrilmək və xarici fondlardan daha çox maliyyə vəsaiti almaq üçün ətrafında olan anlaqsız gəncləri belə satışa çıxarmaqdan çəkinmir: “Eşitdiyimə görə, Bakıda olanlar polis maşınlarına yaxınlaşıb, 5 dəqiqəlik maşında oturmaq üçün 50 manat ödəmək təklifini də ediblər. Yəni sabah Avropada göstərsinlər ki, bunlara qarşı “həbslər” olub. Bu faktlar son vaxtlar Ə.Kərimlinin satdığı partiya arayışı ilə Avropaya gedənlərə aiddir. Yeri gəlmişkən, bu gün Almaniyada yaşayan Sabir Rüstəmxanlının qardaşı Əlövsət Əliyev mətbuatda bir gəncin Almaniyada ona yaxınlaşaraq 2 ildir status almamağının şikayətini edib və bəlli olub ki, arayışı Ə.Kərimlinin partiyasından alıb. Ancaq Ə.Kərimlinin kim olduğunun və hansı partiyanın sədri olduğundan xəbəri yoxdur. Bu mövzuda dəfələrlə açıqlamam olub və bir daha vurğulayıram: Bu gün Ə.Kərimli siyasətlə deyil, siyasi mühacir və siyasi məhbus alveri ilə məşğul olur. İran molla rejiminin Nardaranda həbs olunan şəxslərini Ə.Kərimli “siyasi məhbus” sayır. Daha nə demək olar?”

### Dağıdıcı ünsürlər birbaşa erməni lobbisinin sifarişlərini yerinə yetirir

N.Orduxanlı onu da bildirib ki, Ə.Kərimlinin missiyası radikal müxalifətdə parçalanmanı təmin etmək və Azərbaycan dövlətinin milli maraqlarının əleyhinə fəaliyyət göstərən və birbaşa erməni diasporasının maliyyəsi ilə yaşayan qurumların tapşırıqlarını icra etmək idi: “Fikir verin, gedənlərin böyük əksəriyyəti ailə üzvlərini də aparır. Övladlarını pulsuz məktəblərə qəbul etdirirlər. Hər cür şəraitlə təmin olunurlar. Onu da deyim ki, Rahim Hacıyev kimi adamların ailəlikcə Avropaya köçməsini və status almasını Ə.Kərimli xüsusi tərzdə səfirliklərdən və həmin ölkənin rəsmilərindən xahiş edir. Baxın, bu günə qədər kimlər Avropaya üz tutdular? Ə.Kərimlinin ən yaxın qohumları: əmisi uşaqları, yerliləri, kəndliləri və s.”

Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri Əli Orucov da “siyasi məhbus” termininndən dağıdıcı müxalifətin həmişə istifadə etdiyini bildirib: “Siyasi məhbus” termininin özü məlum deyil. Bu ifadənin özünü zəruri edən şərtlər və kriteriyalar mövcud deyil. Beynəlxalq hüquqi sənədlərdə də “siyasi məhbus” termini yoxdur. Yəni “siyasi məhbus” termininin mahiyyəti və mənşəyi, konkret olaraq, bəlli olmadığına görə, radikal müxalifət həmişə bundan istifadə edib, daha çox provokasiya ilə məşğul olur”.

Göründüyü kimi, eyni düşərgəni bölüşən müxalif təmsilcilər belə Ə.Kərimli, X.İsmayıl, A.Hacılı və İ.Qəmbərin tərtib edib, qısa müddətdə mətbuata təqdim etdikləri qondarma məhbus siyahısını rədd edir və bunu xarici qüvvələrin sifarişi ilə hazırlanan siyahı olduğunu qeyd edirlər. Bu kimi siyahılar tamamilə tükənən, iflas edən dağıdıcı müxalifətin cəmiyyətimizdə çaşqınlıq yaratmaq, xarici qüvvələrin gözündə ucalmaq, ən azı “malades”lə mükafatlanmaq üçün ortaya atdığı kağız parçasıdır. Dövləti cinayətlərdə təqsirli bilinən şəxslərin adlarının siyasi məhbus siyahılarına salınmasının özü cinayətdir. Ölkə Prezidenti, ötən illər ərzində verdiyi əfv fərmanları ilə hüquq müdafiəçilərinin və beynəlxalq təşkilatların siyasi məhbus kimi tanıdığı şəxslərin böyük əksəriyyəti azadlığa buraxılıb. Bu baxımdan, dəfələrlə beynəlxalq təşkilatların nümayəndələri, eləcə də, AŞPA rəsmiləri Azərbaycanda siyasi məhbus olmadığını bəyan ediblər. Bütün bunlardan sonra müxalifətin “siyasi məhbus” siyahısı ilə çıxış etməsi satqınlıqdan, yaramazlıqdan və xarici sifarişləri yerinə yetirən ələ baxım müxalifət adından başqa bir şey deyil.

**İ.ƏLİYEV**

# Dövlətçilik tarixində millət, milli şüur və milli dövlət ideyaları

***Milli şüur və millət vəhdət halında, müasir mənasında, XIX əsrdə təzahür etmişdir. Ümumbəşəri imperiya ideyası ilə ruhlanan Napoleonun müharibələrindən sonra milli azadlıq müharibələri başladı. Milli şüur və milli dövlətlər formalaşırdı. İnsan həyatının millliləşməsi onun individuallaşması, individuallığa can atma isə yeni hadisə idi. Milli dövlətlər və milli fərdiliklər tam olaraq, yalnız XIX əsrdən müəyyənləşir, milli rəngarəngliyin artmasına, paralel olaraq, dövlət və millətlərin fərdiliyi azalır, əyalət qapalılıqları zəifləyirdi. N.Berdyayev yazır: "Deyə bilərik ki, bəşəriyyət bütövləşməyə milli fərdləşmədən keçərək gedir. Tarixdə heç nə düz xətt üzrə, sülh içində böyüməklə, qurbansız olaraq həyata keçmir. İrqlər və xalqlar qanlı mübarizədə qardaşlaşırlar. Müharibədə qapalı və partikulyar mövcudluqlarından kənara çıxış vardır. Dünya müharibəsi isə dünya məkanına çıxışı və mədəniyyətin bütün yer üzərinə yayılması məsələsini qoyur".***

Nüvəsində etnosentrizm duran imperializm millətçiliklə universalizmin bir araya gətirilməsi idi. İngilis dövlət xadimi Kremb ingilis imperializminin mənasını Britaniya imperiyası hüdudlarında yaşayan bütün insanlara ingilislərin dünyaya baxış tərzini təlqin etməkdə görürdü. Bugünkü baxımından, milli dövlət dövlətin millətin idarəsinə verilməsi və vətəndaşların dövlət hakimiyyətinin həyata keçirilməsində iştirakını təmin edən siyasi münasibətlər sistemini əhatə edir. Millət fəal əsas kimi çıxış etməklə, müqəddəratının müəyyənləşdiricisi olaraq, öz ruhunu dövlətində təsdiq etmiş olur. Duyulan ən əsas zərurət isə, azadlığa nail olmaqdır. Həqiqət azad iradə öz hüquqlarına sahib olmalıdır ki, onun özünü reallaşdırsın. Bunun üçün isə millətdə özünü düşünmək səviyyəsi olmalıdır. Hegelin yazdığı kimi, kim ki, özünü düşünmür, o, azad deyil. Kim ki, azad deyil, o özünü düşünmür. Azadlığın özü zərurilik kimi təzahür olunmalıdır. Xalq özünü, həqiqətən, göstərən azadlığını dövlətində anlamaqla və özünü dövləti ilə, bütövlükdə qəbul edərək, özündən kənara təqdim etməklə, millət olma iradəsində olur. Xalq öz hüquqlarını və azadlığını ideya kimi varlığından ruh kimi daxildən doğuraraq, onları yalnız öz dövlətində reallaşdırıb, konkretliyə çevirə bilər. Dövlətində bütövlük kimi, millət gələcəyini öz vəhdətində görmək iqtidarına malik olur. Dövlət isə millətin hər bir mövcudolma anında onun vahidliyinin, azadlığının və hüquqlarının həqiqiliyidir. Bu zaman nəinki ümumilik, yəni millət, eyni zamanda, ayrıca fərd öz maraqlarına malikliyi ilə azaddır və onun azadlığı bütövlüyün azadlığında təsdiqlənir, onunla da tamamlanır və özünü müəyyənləşdirir. X-O.İ.Qasset yazır ki, dövlətin qədim tiplərindən fərqli olaraq, müasir dövlətdə fərdlər ictimai hakimiyyət institutlarının fəaliyyətləri ilə öz radikal həmrəyliyini onlara hər ölçüdə dəstək verməklə bildirirlər. Müasir İngiltərə, Fransa və ya İspaniyada vətəndaşlar yalnız tabe olan deyillər, əksinə, onlar həmişə dövlət hakimiyyətinin həyata keçirilməsində onu müdafiə etməklə iştirak edirlər. Dövlətin milli dövlət kimi ifadə olunması üçün bütün vətəndaşların formalaşmış kanallar vasitəsi ilə bərabər hüquqlarla dövlət hakimiyyətinin həyata keçirilməsində iştirakı kifayət deyildir. Geniş dairənin etnik əsası olması zəruridir. Hər hansı bir dövlətdə isə qeyd olunan hüquqlar verilirsə və eyni zamanda, bu dövlət daxilində bir neçə etnos və etnik qrup və ya etnosla bərabər başqa etnosların müəyyən bir hissəsi vahid cəmiyyətdə birləşdirilsə, təbii ki, yenə də etnik zəmində maraqların toqquşması və bundan irəli gələn sıxışdırmalara cavab olaraq, sərt tələblər ortaya qoyulacaqdır. Cəmiyyət daxilində etnik zəmində qruplaşma və bu qrupların hər birinin sistemli və ya sistemsiz olması da, təzahür olunan maraqları ictimai-siyasi münasibətlərdə özünə yer alacaqdır. Münasibətlər üst qatda ümumdövlət mənafeyinə yönəlmiş tərzdə təqdim olunsa da, alt qatda yenə də etnik zəmində maraqların lokallaşması və toqquşması qalacaqdır. Cəmiyyət daxilində sosial identifikasiya özünü göstərsə də, cəmiyyət etnos və etnik qrup, etnoqrafik qruplar üçün müəyyən düzümlü münasibətlər sahəsi kimi qəbul olunacaqdır ki, bu münasibətlərə girən tərəflər etnik identifikasiyadan keçərək, sosial təşkilatlanmada özlərinə yer alacaqlar. Bu zaman, nəinki ayrılıqda fərd, eyni zamanda, etnik zəmində özünü bütövlük kimi təqdim edən qrupda özünə hüquqlar almaq və münasibətlərdə bu hüquqları ilə ayrıca sima kimi çıxış etmək cəhdində olacaqdır. Fransa dövləti fransız etnosunun, alman dövləti isə alman etnosunun mövcudluğu zəminində təzahür olunaraq, müvafiq etnosun millət kimi bütövlüyünün təminatçısı olması ilə onun mənafeyinə xidmət edən və onun azadlığının ifadəçisi kimi özünü təqdim edən dövlətdir. Digər etnoslardan olanlar bu dövlətlərdə insanlar vətəndaşlıq hüququna yiyələnsələr də, özü ilə nümayəndəsi olduğu etnosa bu dövlətlər daxilində hüquqlar qazanmırlar. Fransa dövləti də, məhz fransız millətinin (etnosunun) hüquqlarının qoruyucusu və azadlığının ifadəçisi kimi özünü təzahür etdirir. Bir neçə etnosu və ya çoxluq təşkil edən etnosla yanaşı, başqa etnik qrupları və digər etnosların müəyyən bir hissəsini əhatə edən dövlət milli dövlət kimi özünü təzahür etdirməyə qadir deyildir. Bu cür dövlətlərdə kompromisə, stabilliyə nail olmaq, status-kvonu saxlamaq üçün "dövlət millətçiliyi etonik anlamda bütün vətəndaşlar etnik mənsubiyyətindən asılı olmayaraq, eyni millətə məxsusdur" ideyasına əsaslanan "millətçilik təlqin edilir və bu yönümdə nəzəri baxış, müvafiq ideologiya hazırlanıb kütləvi şüura ötürülür. Dövlətin ərazisi hər kəsin vətəni, dövlət hər bir şəxsin dövləti, vətəndaş irqindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hamı ilə bərabər hüquqlara malik şəxs və yeni bir millətin nümayəndəsi kimi təqdim olunur və bu yönümdə bir çox vasitələrlə ictimai şüura güclü surətdə təsirlər edilir. Buna baxmayaraq, etnik səpkidə ayrı-seçkilik, şəxsi münasibətlər səviyyəsində belə özünü göstərməkdə davam edir. Eyni məqsədə xidmət edən kitablar yazılır. Qəzetlərdə təkrar-təkrar eyni yönümdə fikirlər verilir, kütləvi informasiya vasitələri beyinlərə təşkil olunmuş hücumlar edir, uşaqlar kiçik yaşlarından eyni ideoloji əsasda tərbiyə olunur, siyasi xadimlər isə "xalqın təmsilçisi" kimi bu cür düşüncə tərzi müstəvisinə özü möhürünü basırlar. Dövlətin bütün sənədləri eyni fikirləri özündə əks etdirir. Təqlid yolu ilə ətraf və özləri haqda qiymətləndirmə ölçülərinə yiyələnməyə meyilli insanlarsa, təbii ki, əksər halda ətrafında eyni yönümlü düşüncələrlə toqquşaraq, onları qəbul edərək, öz fikirləri hesab etməklə, özlərini müstəqid düşüncə sahibi kimi təqdim edəcəklər. Nəticədə də milli özünüdərketmə səviyyəsi aşağıda qalır, milli şüur təhrif olunmuş hala düşmüş olur. Şüurlarda qəfləti oyanış isə, partlayış xarakterli dəyişikliklərə, etnik konfliktlərə və eyni zamanda, etnosda bir çox hadisələrə münasibətdə düzgün qiymətləndirmə tərzinin və ya yanaşmanın olmamasına səbəb olur.

Fəlsəfə üzrə fəlsəfə doktoru Əli İbrahimov göstərir ki, Azərbaycanda məskunlaşmış və buranın daimi sakini olmuş bütün böyük etnosun, o cümlədən, etnik qrupların, milli azlıqların hüquqlarını paritet (bərabərlik) əsasda sabit saxladığından və mütəşəkkil cəmiyyətin inkişaf dinamikasında bunun təsbit olunması reallaşdığından, milli həmrəylik mənbəyinə çevrilməsi stimulunu daha da qüvvətləndirir, başqa sözlə, dünya azərbaycanlılarını birləşdirən milli məfkurəyə çevrilən azərbaycançılıq ideologiyası ölkədəki bütün konfessiya və etnosların həmrəylik və qarşılıqlı anlaşma mühitində yaşamasını təmin edən mənəvi mexanizm səciyyəsi daşıyır.

> Məsələnin daha önəmlisi də milli həmrəylik çevrəsində yaşayan xalqlara təlqin olunan azərbaycançılığın hələ Bakıda Dünya Azərbaycanlılarının I Qurultayında Ümummilli Lider Heydər Əliyevin proqram nitqində həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas aparıcı ideya olması və bunun YUNESKO-nun 2005-ci ildə Parisdə "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi" haqqında qəbul edilmiş konvensiya ilə əlaqələndirilməsi qeyd edilmişdir.

Məsələnin daha önəmlisi də milli həmrəylik çevrəsində yaşayan xalqlara təlqin olunan azərbaycançılığın hələ Bakıda Dünya Azərbaycanlılarının I Qurultayında Ümummilli Lider Heydər Əliyevin proqram nitqində həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas aparıcı ideya olması və bunun YUNESKO-nun 2005-ci ildə Parisdə "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi" haqqında qəbul edilmiş konvensiya ilə əlaqələndirilməsi qeyd edilmişdir. Azərbaycan Respublikasının həmin konvensiyaya qoşulmasından irəli gələn istiqamətlər içərisində mədəniyyətlərarası hörmət və sülh mədəniyyəti naminə xalqlar arasında mənəvi körpülərin qurulması ruhunda mədəniyyətlərin qarşılıqlı əlaqələrini inkişaf etdirmək məqsədilə multikultural siyasətin bir proqram sənədi kimi səciyyələndirilməsi, müasir cəmiyyətdə sosial, etnomədəni proseslərə münbit şəraitin yaradılmasında başlanğıc bir addımdır.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 20 iyul

## Yaşıl çay içən yaşlı adamlar daha sərbəst olurlar...



Müntəzəm şəkildə yaşıl çay içən yaşlı adamlar daha sərbəst və müstəqil olması ilə fərqlənirlər. Yapon mütəxəssislərin apardıqları araşdırmalara görə, bu fakt bir tərəfdən bu qrupdan olan adamların həyat tərzi, digər tərəfdən isə yaşıl çayın tərkibindəki kimyəvi birləşmələrlə əlaqələndirilir.

Yaşıl çayın tərkinibində antioksidantların çoxlu sayda konsentrasiyası mövcuddur. Bu birləşmələr orqanizmi xəstəliklərin inkişafına yol açan zədələnmiş hüceyrələrdən müdafiə etməyə qadirdir. Toxoku Universitetindən Yasutake Tomata son tədqiqatı zamanı həmkarları ilə birlikdə yaşıl çayın iş qabiliyyətini saxlamağa təsirini öyrənmək üçün üç il ərzində təxminən 14 min yaşlı adamı (65 yaşında və yuxarı) müşahidə edib.

Məlum olub ki, hamıdan daha çox yaşıl çay içən adamlar digərlərinə nisbətən funksional pozuntulardan daha az əziyyət çəkir və ya gündəlik həyatda vanna qəbul etmək kimi adi işləri yerinə yetirməkdə çətinlik çəkmirlər. Belə adamlar həm də nadir hallarda siqaret çəkir, daha yaxşı təhsilə malik olur, çoxlu sayda dostlar qazanır və ürəklə bağlı problemləri az olur və sosial fəallıq ilə fərqlənirlər. Müqayisə üçün deyək ki, gündə azı 5 fincan çay içən adamlarda iş bacarığının itirilməsinin inkişafı təhlükəsi üçdə bir dəfə azalır. 3-4 fincan içənlər isə bu riski 25 faiz azaldırlar.

## B4 vitamini ye, yaxşı yaddaşa sahib ol!

Boston Universitetinin əməkdaşları yaddaşın inkişafı və bəzi ərzaq məhsullarından istifadə arasında asılılığı öyrəniblər. Məlum olub ki, insan xolin və ya B4 vitamini zəngin qida qəbul etdikdə beyinin yaddaşa cavabdeh olan zonaları xeyli fəallaşır. Alimlərin təklif etdikləri pəhrizə toyuq əti, qara ciyər, yumurta, süd və balıq daxildir. Xolin, həmçinin paxlalı bitkilərdə boldur. Alimlər bildirirlər ki, toyuq yumurtası yeyən insan özünü baş beyinin qocalması kimi xoşagəlməz prosesdən qorumaqla yanaşı, yaddaşının zəifləməsinin qarşısını alır.

## İnsanlar niyə psixopat olurlar?

Londondakı Kinqz Kollecin Psixiatriya İnstitutunun alimləri bəzi insanların niyə psixopat olmalarının mexanizmini öyrəndiklərini bəyan ediblər. Ruhi xəstələr üçün təcridxanalarda aparılmış araşdırmaya əsasən, bunda günahkar beynin iki yarımkürəsi arasında qeyri-sabit ünsiyyətdir.

Bunun nəticəsində, qorxu, emosiya və aqressivlik kimi hisslər barədə informasiyanın ötürülməsində nöqsanlar baş verir və nəticədə, insanda psixopatik davranış ortaya çıxır. İnstitutun mütəxəssisi doktor Maykl Kreyq beynin hissələri arasında mesajlaşmanın belə tərzini, kələ-kötür yolla maşın sürməyə bənzədir: "Psixopatların beyin yarımkürələri arasındakı ünsiyyət magistralında sanki böyük sayda çala-çuxur var. Bu magistralın qayğısına heç kim qalmır və onunla hərəkət edən informasiya çalalarda itib-batır."

Doktor Kreyq deyir ki, öz-özlüyündə belə bir hal psixopatiya diaqnozunun qoyulması üçün kifayət deyil. Beləki, o başqa psixatrik pozuntularda da baş verir. Lakin bu psixopatiya üçün vacib faktorlardan biridir. Digər sözlə, bu yalnız psixopatiya üçün spesifik bir göstərici deyil, lakin, psixopatlarda daima müşahidə olunan bir haldır.

Alimlər 9 psixiatrik xəstəni müayinə ediblər. Onlar çoxsaylı zorlama və adam öldürmədə məhkum olunan şəxslər olublar. Bu kiçik bir araşdırma olsa da, bunun ədliyyə sistemində cinayətlərə dair qərarların qəbul edilməsinə təsiri ola bilər. Ələxüsus, zorakı canilərin yenidən cinayət törətməsi nəzərə alınan hallarda.

## "Qarabağ" Çempionlar Liqasında növbəti qələbəsini qazandı!



Ağdamın "Qarabağ" klubu futbol üzrə UEFA Çempionlar Liqasının üçüncü təsnifat mərhələsinə yüksəlib. AZƏRTAC xəbər verir ki, iyulun 18-də turnirin ikinci təsnifat mərhələsinin cavab matçları çərçivəsində Ağdam təmsilçisi səfərdə Gürcüstanın "Samtredia" komandası ilə qarşılaşıb.

Boris Payçadze adına stadionda keçirilən oyunun 22-ci dəqiqəsində Ağdam təmsilçisi hesabı açıb. Donald Qerye topu meydan sahiblərinin qapısından keçirib. Birinci hissənin sonrakı dəqiqələrinin də komandamızın üstünlüyü ilə keçməsinə baxmayaraq, hesab dəyişməyib. Matçın ilk hissəsini "Qarabağ" 1:0 hesabı ilə öz xeyrinə başa vurub. Görüşün ikinci hissəsi də "Qarabağ"ın üstünlüyü şəraitində keçib. Komandaların cəhdlərinə baxmayaraq tabloda rəqəmlər dəyişməyib.

Beləliklə, matç Azərbaycan çempionunun minimal qələbəsi ilə başa çatıb - 1:0. Bir həftə əvvəl Bakıda təşkil olunan ilk oyun da "Qarabağ"ın qələbəsi ilə yekunlaşıb - 5:0. İki oyunun nəticəsinə görə, "Qarabağ" UEFA Çempionlar Liqasının üçüncü təsnifat mərhələsinə yüksəlib. Çempionumuz rəqib meydanında bu qələbəsi ilə Azərbaycanın hesabına daha 0,250 xal əlavə edib. Azərbaycan çempionu təsnifat mərhələsinin növbəti turunda "Şerif" (Moldova)-"Kukesi" (Albaniya) cütünün qalibi ilə qarşılaşacaq.

## Cüdoçularımız Minskdə keçiriləcək açıq Avropa çempionatına qatılacaqlar




Cüdo üzrə Azərbaycan milli komandası Bakıda təlim-məşq toplanışını başa vurduqdan sonra iyulun 20-də səfərə yollanacaq. Cüdoçularımız iyulun 22-də Minskdə keçiriləcək açıq Avropa çempionatına qatılacaqlar. AZƏRTAC xəbər verir ki, 50 ölkədən 500-ə yaxın cüdoçunun mübarizə aparacağı mötəbər yarışda ölkəmiz 16 idmançı ilə təmsil olunacaq.

Minskdə Orxan Səfərov, Nicat Şıxəlizadə, Rüstəm Orucov, Hidayət Heydərov, Fəqan Quluzadə, Məmmədli Mehdiyev, Tural Səfquliyev, Firudin Dadaşov, Rüfət İsmayılov, Elmar Qasımov, Elxan Məmmədov, Uşanqi Kokauri, Səkinə Zayırova, Gülsədəf Kərimova, Kristina Jukovets və Nuriyyə Axundova tatami üzərinə çıxacaqlar.

## Qrossmeysterimiz açıq Paris çempionatının liderlər qrupundadır



Fransada şahmat üzrə açıq Paris çempionatı keçirilir. Çempionatda 60 şahmatçı, o cümlədən on qrossmeyster iştirak edir. AZƏRTAC xəbər verir ki, Azərbaycanı turnirdə beynəlxalq usta Namiq Quliyev təmsil edir. Beş turdan sonra 4 xal toplayan N.Quliyev yerli şahmatçılar Bilel Bellasen, Borya İder, Jules Mussar, Andrey Şekaçyov, habelə Sergey Fedorçuk (Ukrayna) ilə birlikdə liderlər qrupundadır. Altı şahmatçı hərəyə 3,5 xal, 12 şahmatçı hərəyə 3 xal toplayıb. Püşkatmanın nəticələrinə görə, altıncı turda şahmatçımız ağ fiqurlarla B.İder (Fransa) ilə oynayacaq. Açıq Paris çempionatı İsveçrə sistemi üzrə keçirilir və 9 turdan ibarətdir.

## Navalovski "Neftçi"dən getdi



"Neftçi"nin futbolçusu Georgi Navalovski komandadan ayrılmaq qərarı verib. Bu barədə Qol.az-a klubun mətbuat xidmətinin rəhbəri Rüstəm Əfsərli bildirib. Onun sözlərinə görə, Rusiya Premyer Liqa təmsilçisi "SKA-Xaborovski" klubundan təklif alan gürcüstanlı müdafiəçi "Neftçi"dən ayrılacaq. Sabah Navalovkinin müqaviləsinə xitam veriləcək. Qeyd edək ki, 31 yaşlı futbolçu ötən ilin dekabrında Yunanıstanın "Veriya" klubundan "Neftçi"yə keçmişdi.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500